**Qurban BAYRAMOV**

# VURĞUN POEZİYASI

**Bakı – 2021**

Redaktor: Zaur USTAC
Ön söz: Tehran ƏLİŞANOĞLU

"Vurğun poeziyası" – Qurban BAYRAMOV
Bakı, "USTAC.AZ" nəşrləri, 2021, 100 səh.
Kod: 030-06-BQF-14-20-21

*Dahi Azərbaycan şairi Səməd Vurğunun anadan olmasının 70 illiyi münasibətilə 1976 –cı ildə kril əlifbasında nəşr olunmuş bu kitab ədəbiyyatşünas alim, tənqidçi, professor Qurban Bayramovun anadan olmasının 75 illik yubiley tədbirləri çərçivəsində latın əlifbasında müəllifin yeni nəşrə şərhi və Tehran Əlişanoğlunun ön söz məqaləsi ilə birlikdə yenidən nəşr olunur.*

Latın əlifbasına transleterasiya edən və kompyuterdə yığan: Validə AĞAHƏSƏNQIZI

.

©Q.BAYRAMOV, 1976.
©Q.BAYRAMOV, 2021.

## LATIN QRAFİKASI İLƏ NƏŞRƏ MÜƏLLİF ŞƏRHİ

***Hörmətli oxucular! Sizə latın əlifbasında təqdim olunan bu kitab mənim 47 il bundan qabaq yazdığım "Səməd Vurğun poeziyasında lirik qəhrəman" monoqrafiyasının əsasında qısaldılaraq, kütləvilik üslubunda hazırlanmış və 1976-cı ildə çap edilmiş nəşrin əslidir.***

***Kitabda ancaq korrektura baxımından düzəlişlər edilibdir. Buna görə də, həmin dövrün elmi-ideoloji tələblərindən irəli gələn istilah və ifadələrə, siyasi ədəbiyyatdan gətirilən istinadlara bilərəkdən toxunulmayıbdır...***

***Bir məsələni də xatırladım ki, kitabın ilk səhifəsindəcə gedən "Yaradıcılığının ümumbəşəri məziyyətlərinə görə Səməd Vurğunu Dante, Servantes, Şekspir, Hüqo, Rustaveli, Füzuli, Nəvai, Taqor, Tolstoy, Qorki kimi dühalarla yanaşı duran şəxsiyyət hesab etmişlər." – fikrinə istinadən, Azərbaycan SSR MK-nın plenumunda ideoloji katibin məruzəsində məni – gənc tədqiqatçını ideoloji səbatsızlıqda günahlandırmışdılar ki, böyük sovet şairini feodalizm dövrünün sənətkarları ilə müqayisə etmişəm... Buna görə elmi müdafiəm neçə illər ləngidildi, ikinci kitabımı isə on ildən sonra nəşr edə bildim...***

***Müasir oxuculardan xahiş edirəm ki, mütləq bunları nəzərə alsınlar və görsünlər ki, biz qələm əhli hansı çətinliklərlə, qadağalarla qarşılaşmış, lakin buna baxmayaraq, tədqi-***

***qatlarımızda milli ədəbiyyatımızın əsas meyar və ideyalarını qoruya bilmişik...***

***Həmçinin bu nəşrə Azərbaycan Milli Elmilər Akademiyasının müxbir üzvü, tanınmış tənqidçi-ədəbiyyatşünas, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Müstəqillik dövrü Azərbaycan ədəbiyyat" şöbəsinin müdiri, fil.e.d., prof. Tehran Əlişanoğlunun "Ədbiyyatda yaşanan ömür" məqaləsini "Ön söz" kimi veririk.***

# Ədəbiyyatda yaşanan ömür

Görkəmli ədəbiyyatşünas, tənqidçi, publisist, filologiya üzrə fəlsəfə doktoru, İnstitutumuzun ən qocaman əməkdaşlarından olan Qurban Fərman oğlu Bayramovun həyatı, fəaliyyəti, bioqrafiyası ədəbiyyatda yaşanan bir ömürdür.

Qurban Bayramov haqqında sözü adətən ordan başlayırlar ki, ədəbiyyatda və elmdə xidmətləri olan Bayramovlar nəslinin nümayəndəsidir. Q.Bayramov Sovet dönəmi ədəbiyyatının ən sanballı simalarından yazıçı Bayram Bayramovun və Azərbaycanda sosial psixologiya fənninin əsasını qoyanlardan biri Əkbər Bayramovun ədəbiyyatda və elmdə layiqli davamçısıdır.

Bəlkə də belə bir ziyalı ailə mühitində yetişməsinin nəticəsidir ki, Qurban Bayramov ədəbiyyata doğru-dürüst yerdən qədəm qoymuş və bütün fəaliyyəti boyu təqib qıldığı yolda heç zaman büdrəməmişdir. Q.Bayramov ədəbiyyatın tədqiqinə köklü bir məqamdan – Səməd

Vurğun poeziyasından başlayıb. S.Vurğun şeirindən keçmək müasir ədəbiyyatı, XX əsr poeziyasını bütün əhatəsi ilə anlamağa-bilməyə bərabərdir. 1970-1974-cü illərdə Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasında təhsil alan Q.Bayramov 1979-cu ildə "Səməd Vurğun poeziyasında lirik qəhrəman problemi" mövzusunda dissertasiya müdafiə etmiş və ömrünü birdəfəlik ədəbiyyata və Ədəbiyyat İnstitutuna bağlamışdır. “Vurğun poeziyası” (B., Elm, 1976), “Lirik qəhrəman və zaman (Səməd Vurğun poeziyasında lirik qəhrəman problemi)” (B., Elm, 1986) adlanan ilk kitabları da S.Vurğun şerinin poetikasına həsr olunub. Qeyd etmək lazımdır ki, həmin kitablar bugün də önəmini saxlayan, S.Vurğun şeiri haqqında yazılmış ən dürüst tədqiqat əsərlərindəndir.

Q.Bayramovun monoqrafiyaları S.Vurğun yaradıcılığına 1960-1980-ci illər ədəbiyyatşünaslığının rakursunu ifadə edir və vulqar sosiologizm qalıqlarından tam təmizdir. S.Vurğun şeirinin ideya-qayə etibarilə başlıca

olaraq Azərbaycançılıq üzərində durduğunu təsbit edir və ilk addımlarından müdrik çağlarınacan pillə-pillə, mərhələ-mərhələ bu qayəni lirik qəhrəman problemi müstəvisində izləyir və çözür. Şairin qəhrəmanı eyni zamanda milliliyin dar çərçivələrinə sığmır, daha böyük ideallarla yaşayır, bütünlükdə əsri və zamanı məşğul edən problemlərlə çarpışır. Q.Bayramov S.Vurğun şeirində millilikdən, Vətənpərvərlikdən, Azərbaycançılıqdan ümumbəşəriliyə, müasir insani dəyərlərə gedən yolu təfərrüatlı, faktiki, konkret elmi yanaşma əsasında çözə bilir. Heç bir pafosa və konyuktur-populist şüarlara uymadan... Dövrə xas cüzi ictimai-siyasi atributları çıxmaqla, zənnimcə, bu - S.Vurğun irsinə ən doğru yanaşmadır. Bəzən müşahidə olunduğu kimi, S.Vurğun irsini öz zamanının mürəkkəb kontekstindən ayırıb, yalnız millilik konsepti çərçivəsində çözmək, təkcə şairin nəhəng yaradıcılıq miqyasını kiçiltmək deyil, ümumən Azərbaycanı XX əsr proseslərindən qoparmaq demək olardı. S.Vurğun öz cahanşümul ideallarında bugün də bizdən irəlidədir...

Q.Bayramov gözəl tarixi poetika araşdırıcısıdır. S.Vurğunun lirik qəhrəmanının bizim romantizm ədəbiyyatından və canlı həyatdan necə təkamül etdiyini məharətlə üzə çıxarır. Yaxud başqa bir – "M.Ə.Sabir ənənələri və Azərbaycan ədəbiyyatı" tədqiqatında izlədiyi Sabir- C.Cabbarlı əlaqələri bunu sübut edir. Sabirin Cabbarlıya təsirinin "Babayi-Əmir" şeirlərindən daha dərin olduğu, Cabbarlının pyeslərində tipikləşdirmə və fərdiləşdirmə üsullarında üzə çıxdığını ilk olaraq məhz Q.Bayramov tədqiq etmişdir.

Q.Bayramovun alim üslubu Azərbaycan ədəbiyyatşünaslığının intensiv inkişaf dövründə formalaşmış və o bu zəngin xəzinəni bacarıqla əxz etmişdir. Alimin tənqidşünaslıq bilikləri bütün genişliyi ilə qızı Jalə Qurbanqızı ilə birgə yazdığı "Yaşar Qarayev: Milli yaddaş təlimi – Azərbaycançılıq" (2001) və "Xalq yazıçısı İlyas Əfəndiyevin yaradıcılığı ədəbi tənqiddə" (2014) monoqrafiyalarında üzə çıxdı. Y.Qarayev haqqında hər təzə söz, məqalə, yazı meydana çıxarkən, elə bilirsən

ki, daha deyilməmiş söz qalmamışdır. Q.Bayramovun əsəri böyük alim, unudulmaz Yaşar Qarayev haqqında ikinci, həm də ən sanballı monoqrafiyadır. Burda müəlliflər Yaşar Qarayev fenomeni haqqında fərqli söz deyə bilir; ilk dəfə diqqəti ideoloji faktora – sovet ideologiyasına rəğmən, ədibin yetişdiyi və eyni zamanda yaradıcılığı boyu yetirdiyi milli yaddaş təliminə cəlb edirlər.

Bütün bunlardan başqa, Q.Bayramovun geniş, hərtərəfli ədəbiyyatşünaslıq potensialını üzə çıxaran: "Müasir Azərbaycan poeziyasında üslubi meyillər", "Azərbaycan ədəbiyyatında tarixilik və müasirlik", "M.Ə.Sabir ənənələri və Azərbaycan ədəbiyyatı", "Səməd Vurğun dünən, bu gün və sabah", "M.H.Şəhriyar poetik üslubu", "Qarabağ ədəbi mühiti – uzaq keçmişdən bu günümüzə qədər" kimi maraqlı tədqiqat işləri vardır. Və bu tədqiqat işlərinin əsas məğzi-qayəsi alimin XX əsr klassikasını dərindən mənimsəyərək, müasirliyin, müasir ədəbiyyatın xidmətinə yönəltmək cəhdləri, ehtiraslarında görünür. Ümumən, Qurban Bayramovun dövri və elmi

mətbuatda 300-dən çox məğaləsi, altı monoqrafiya və kitabı çap olunub. Amma çap olunmamış tədqiqatları daha çoxdur.

Qurban Bayramovun ilk tədqiqat işlərindən başlayaraq, ədəbiyyatşünas istedadını görkəmli alimlərimiz yüksək qiymətləndirmiş: akademiklər M.Cəfər, K.Talıbzadə, B.Nəbiyev, xalq şairi B.Vahabzadə, xalq yazıçısı Elçin, professorlar Əkbər Ağayev, Yəhya Seyidov, Kamran Məmmədov, Mirzağa Quluzadə, Cəlal Abdullayev, Şamil Salmanov və onlarla digər alimlərimiz haqqında dəyərli fikirlər söyləmişlər. Eyni zamanda Q.Bayramovun adekvat olaraq görkəmli alimləri dəyərləndirməsi, haqqında yazıları, fikirləri, deyimləri mövcuddur. Ümumən XX əsr ədəbiyyatımızda yeri olan elə bir imza tapmaq çətindir ki, bu və ya digər şəkildə Q.Bayramovun tənqidçi qələmindən yan ötsün.

Müstəqillik illərində Qurban Bayramovun yaradıcılığının ikinci dövrü başlayır. Bu mərhələdə o, ədəbi

fəaliyyətinin əsas predmetini - müasir ədəbiyyatda, missiyasını isə tənqidçilikdə tapır. Demək lazımdır ki, köhnə ədəbi prosesin kökündən dağılıb, yenisinin hələ kifayət qədər oturuşmadığı müstəqillik illərində ədəbiyyatın ən çətin sahəsi – tənqidlə məşğul olmaq heç də asan məsələ deyil. Ədəbiyyatın, ədəbi dəyərlərin qarşısında böyük məsuliyyətlə yanaşı, bu həm də tənqidçidən cəsarət tələb edir. Həqiqəti üzə demək cəsarəti; təkcə ədəbiyyat həqiqətlərini yox, həm də ədəbi mühit həqiqətlərini, bəzən üzdə olmayan, amma ədəbiyyatın inkişafına ciddi əngəl olan pərdə-arxası kluar həqiqətlərini. Qurban Bayramovun istər xarakterində, istərsə də qələmində sözü birbaşa demək, həqiqətin keşiyində durmaq üstünlüyü var. Bunu tənqidçinin yazıları təsdiq edir. Habelə Q.Bayramov haqqında yazan, söz deyən hər bir kəs bunu tənqidçiyə yaraşan ümdə cəhət kimi vurğulayır.

Digər bir çətinlik ondan ibarətdir ki, klassikadan, bədii təsdiqini tapmış dəyərlərdən yazmaq həmişə uduşludur; yarımçıq, hələ başa çatmamış proseslərdən söz açmaq,

zamanın sınağından çıxmamış predmetləri, həqiqətləri çözmək barədə isə bunu demək olmaz. Bununla belə, Q.Bayramovun klassik tədqiqatları ilə yanaşı, "Əli İldırımoğlunun yaradıclıq yolu: milli-mənəvi dəyərlərin bədii salnaməsi" (B., "Nurlan", 2009), "Poeziyanın sirri: ... şair Şahməmmədin poeportreti" (B., "MBM", 2009) kimi monumental və mini-monoqrafiayalarının da adını çəkmək lazım gəlir.

Qurban Bayramovun ədəbiyyatşünas maraqları kimi, tənqidçi erudisiyası da genişdir. Ədəbi prosesi ardıcıl izləyən, dövrümüzə xas çoxçeşidliliyi, çoxsəsliliyindən baş açan tənqidçi icmal-yazılarında yeri gəldikcə ümumiləşdirmələr aparır, dəyərləndirmələr verir, əsl poeziya bilicisi kimi ədəbi istiqamətləri müəyyənləşdirir. Müasir ədəbiyyatda qabartmağı lazım bildiyi ayrı-ayrı imza sahibləri haqqında portret yazılarla çıxış edir. Və bu zaman bir qayda olaraq Q.Bayramov poetik həqiqətin mövqeyində durur. Bədiiyyata çevrilməmiş, bədii dəyər kəsb etməmiş fakt onu məşğul etmir. Klassik dəyərlərin

məcrasından çıxmış tənqidçi müasir ədəbi prosesdə ənənənin yerini bildiyi kimi, modern tendensiyaları da görür və dəqiq qiymətləndirir.

Heç təsadüfi deyil ki, uzun illər ərzində Ədəbiyyat İnstitutunda ilin ədəbi yekunları üzrə Q.Bayramovun hazırladığı poeziya icmalları Azərbaycan ədəbiyyatında son on ilin poetik mənzərəsini görməyə, analitik süzgəcdən keçirməyə tam imkan verir. Buradaca onu da qeyd edim ki, akademik İsa Həbibbəylinin tapşırığı ilə şöbəmizin hazırladığı “Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı” kitabının dəyərli müəlliflərindən biri də Qurban Bayramovdur.

Qurban Bayramov ədəbi yaradıcılığında olduğu kimi, ictimai fəaliyyətində də həmişə fəal və diqqət mərkəzində olmuşdur. Bir çox mükafatlara, o sıradan Azərbaycan MEA-nın “Fəxri fərman”ına və “Tanınmış Vurğunşünas alim” fəxri diplomuna layiq görülmüşdür.

Qurban müəllimin İnstitutda da, şöbəmizdə də böyük hörməti var. Hamımız onu sevir, qədrini bilir, bilik və təcrübəsindən bəhrələnməyə çalışırıq. Qurban Bayramov bugün 70 yaşın (indi 75 yaşın – redaktor) cavanlığını yaşayır, əvvəlki şövq və əzmlə qələm işlədir, müasir ədəbiyyatımızın qarşısında duran problemləri çözməkdə davam edir.

70 ( indi – 75) yaşınız mübarək, Qurban müəllim!

***Tehran Əlişanoğlu, fil.e.d., prof.,***

***Azərbaycan Milli Elmilər Akademiyasının müxbir üzvü, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" şöbəsinin müdiri.***

***2016 – 2021.***

AZƏRBAYCAN SSR "BİLİK" CƏMİYYƏTİ

*Mühazirəçiyə kömək*

QURBAN BAYRAMOV

# VURĞUN POEZİYASI

(Anadan olmasının 70 illiyi münasibətilə)

Bakı – 1976

***Müəllif bu kitabda, əsasən S.Vurğun lirikasının təşəkkül yolunu izləmiş, şəxsiyyət və lirik qəhrəman qarşılığı əsasında onun poeziyasının inkişaf mərhələlərini izah etmiş, şairin estetik və fəlsəfi qayəsini qismən açmağa çalışmışdır.***

***Əsər mühazirəçilər və şairin poetik irsi ilə maraqlanan oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.***

## GİRİŞ ƏVƏZİ

Sənəti yaradanların, onun bütün ağırlığını fədakarlıqla çiyinlərində aparanların arasıda elə simalar vardır ki, onların hər birinə ayrılıqda yanaşdıqda təsəvvürümüzdəki əzəmət, möhtəşəmlik daha da artır. Belə sənətkarlardan biri də Səməd Vurğundur.

Şairin əzəməti, böyüklüyü onun ciddi zəhmətini, sonsuz məhəbbətinin, dönməz əqidəsinin nəticəsində yaranmışdır. Görkəmli sovet şairi Nikolay Tixonov yazırdı ki, Azərbaycanda, şairlər ölkəsində, xalqın Nizami, Xaqani, Vaqif kimi şairlərə hörmət etdiyi bir məmləkətdə yüksək xalq şairi kimi ad-san qazanmaq üçün ürəkləri ələ almaq o qədər də asan deyildir.

Belə çətin və şərəfli işin öhdəsindən bacarıqla gələn Səməd Vurğun xalqın bütün sevincinə və "bütün bəlalarına şərik olaraq" onun nəğməkarına çevrilmişdir. Çünki o, yüksək ideallı, ümumbəşər arzulu insanlığın şairi olmuşdur. Şairin əsərlərində xalqların xoşbəxtliyi, səadəti, beynəlmiləl və inqi- labi birliyi, ümumxalq azadlığını gətirən kommunizmin təntənəsi başlıca motiv kimi həmişə yüksək bədiiliklə tərənnüm edilmişdir.

Yaradıcılığının bu ümumbəşəri məziyyətlərinə görə Səməd Vurğunu Dante, Servantes, Şekspir, Hüqo, Rustaveli, Füzuli, Nəvai, Taqor, Tolstoy, Qorki kimi dühalarla yanaşı duran şəxsiyyət hesab etmişlər.

Sov. İKP MK-nın Baş katibi L.İ.Brejnevin SSRİ-nin 50 illiyi münasibətilə söylədiyi nitqində çoxmillətli sovet ədəbiyyatına yüksək qiymət verərək, ən görkəmli sovet yazıçıları sırasında Səməd Vurğunun adını şərəflə çəkmişdir.

Azərbaycanda keçirilən sovet ədəbiyyatı günlərinin təntənəli açılışında SSRİ Yazıçılar İttifaqı İdarə Heyətinin birinci katibi,

Sosialist Əməyi Qəhrəmanı G.M.Markov illərin sınağını ədəbiyyat üçün əsas meyar sayaraq demişdir:

"Bu gün biz təsdiq edib deyə bilərik ki, yeni proletar ədəbiyyatının beşiyi başında dayanmış Azərbaycan yazıçılarının – Cəfər Cabbarlının, Səməd Vurğunun, Mehdi Hüseynin və başqalarının bir çox əsərləri zamanın sınağından çıxmış, çoxmillətli sovet ədəbiyyatının xəzinəsinə gözəl töhfə olmuşdur".

"Zamanın sınağından çıxmış, çoxmillətli sovet ədəbiyyatı"mızın xəzinəsində özünə layiqli yer tutmuş Səməd Vurğunun otuz iki ildən artıq dövrü əhatə edən yaradıcılığı sovet ədəbiyyatının yaranma və inkişaf yollarına uyğun şəkildə boy atmış və bu ədəbiyyatın ən yaxşı nümunəsi kimi həmişə diqqət mərkəzində olmuşdur.

## LİRİK QƏHRƏMANIN TƏŞƏKKÜL YOLU

Səməd Yusif oğlu Vəkilov (Vurğun) 1906-cı il martın 21-də Qazax rayonunun Salahlı kəndində anadan olmuş və nağıllı-bayatılı uşaqlıq illərini burada keçirmişdir.

Səməd ilk təhsilini Salahlı kəndindəki beş sinifli rus-tatar (Azərbaycan – Q.B.) məktəbində almışdır. 1924-cü ildə Qazaxda pedaqoji texnikum bitirən gənc Səməd Şıxlı kəndinə müəllim təyin edilir.

Çox həssas və hər şeylə maraqlanan Səməd yaradıcılığa erkən – Qazax seminariyasında oxuduğu illərdən başlamışdır. Şairin qələm dostu Osman Sarıvəlli yazır ki, “Səmədin təxminən 1922-1923-cü illərdə məktəbin “Tələbə əfkarı” adı ilə çıxan divar qəzetinə şeirlər yazdığı bizim yadımızdadır”.

Səməd Vurğunun yaradıcılığa erkən başlaması mülahizəsinin yəqinliyinin onun 1925-ci ildə çap olunmuş “Cavanlara xitab” adlı ilk mətbu hesab edilən şeiri, həmçinin sübut edir.

“Cavanlara xitab” şeiri indiyə qədər əldə olmadığına görə, şairin ilk mətbu şeiri “Hazır olunuz” (“Maarif və mədəniyyət” jurnalı, № 7-8, 1927-ci il) hesab edilmişdir. Lakin Səməd Vurğunun “Hazır olunuz”a qədər hələlik üç çap şeiri – “Cavanlara xitab”, “Ondan da gözəldir”, “Orda” artıq məlumdur.

Gənc şairin “Cavanlara xitab” şeirini nəzərdən keçirmək maraqlıdır. Şeirdə gənc komsomolçu Səməd zəif şəkildə olsa da 20-ci illərin cavanları qarşısında duran mühüm ictimai-siyasi vəzifələrdən, onların tarixi borcundan söhbət açır. Şeirin ən böyük məziyyətlərindən biri bundadır ki, o, gənc Səməd Vurğunun gələcək siyasi platformasının düzgün təməl üzərində qurulmasını aydınlaşdırmağa kömək edir. “Cavanlara xitab” şeirində siyasi əqidəsinə və tutduğu yola inanan komsomolçu şair Səməd həmyaşlarına müraciətlə deyir:

Mənim düşgün könlüm sizdən eliyor,
Bu fərz olan təmənnani, cəvanlar,
Unutmayaq bəşər sizdən diliyor,
Elm, ədəb, həm ürfani, cəvanlar.

Çünki tələb edir zəvallı bəşər,
Gərək keçə sizdən ona bir əsər.
Yoxsa qan ağlayar yenə sərbəsər,
Olmaz da dərdinə çarə, cəvanlar.

Şeirdə təsvir olunan vəziyyət, irəli sürülən ideya o dövrün tələbinə tam uyğundur. Çünki hər yerdə ictimai-siyasi mübarizə gedir. Belə bir mübarizədə komsomolçunun, "Şanlı bolşeviklər firqəsinin sağ əli" olan gənclərin vəzifəsi nədən ibarətdir? – sualına gənc Səməd "Cavanlara xitab" şeirində cavab verməyə çalışmışdır.

Səməd Vurğunun yaradıcılığında maraqlı cəhətlərdən biri də budur ki, "Cavanlara xitab", "Ondan da gözəldir", "Orda", "Hazır olunuz" və bu kimi ilk çap şeirlərində siyasi mövqe özünü aydın göstərməkdədir. Bu onu sübut edir ki, Səməd Vurğun ilk mətbu şeirlərindən başlayaraq kimə və nəyə xilmət edəcəyi qənaətinə gəlmişdi.

1924-1928-ci illərdə şairin yazdığı şeirlərdə əsasən iki istiqamət özünü göstərirdi; bunlardan birincisi ictimai-siyasi həyatla bağlı, günün tələbindən doğan mövzularda yazılan, ikincisi isə əsas etibarı ilə, subyektiv hisslərin, şəxsi kədər və tərəddüdlərin nəticəsi kimi yaranan şeirlər idi. Bu şeirlərin hamısı, xüsusən, ikinci qol əsasən lirik, hissi-emosional tərzdə yazılmışdı və S.Vurğunun bu dövr yaradıcılığında nisbətən üstünlük təşkil edirdi.

Məlum olduğu kimi, S.Vurğun gənclik çağlarında çılğıncasına sevmiş, lakin bu məhəbbət uğursuz olmuşdur. Təbiətən

sadə və təmiz olan, yüksək psixoloji temperamentə malik Səməd bu məhəbbətdən sarsılmış, özünə "Vurğun" təxəllüsünü götürmüş, saf məhəbbətdən yaranan iztirablarını tərənnüm etmişdir.

S.Vurğun yaradıcılığının ilk çağlarında bir çox təxəllüsdən istifadə etmişdir. Bu heç də təsadüfi hal daşımırdı. Həmin təxəllüs obrazlar şairin keçirdiyi hissi-psixoloji anları, onun o dövrdəki dünyagörüşünü, həyata baxışını əks etməklə yana- şı, müəyyən dərəcədə şairin tərcümeyi-halını əhatə edirdi. Belə təxəllüslər altında yazılan şeirlərin əksəriyyəti "Çiçək" kitabında toplanmışdır.

Dünya ədəbiyyatında, xüsusilə Şərq poeziyasında söz sənətkarları təxəllüsə xüsusi maraq göstərmiş, özlərinin estetik prinsiplərini ümumiləşdirən bədii obraz kimi ondan istifadə etmişlər.

Azərbaycan ədəbiyyatının Xaqani, Nizami, Nəsimi, Xətai, Füzuli, Vaqif, Sabir kimi poeziya korifeyləri özlərinin ən qabarıq yaradıcılıq prinsiplərini nəzərdə tutaraq təxəllüs seçmişlər.

S.Vurğunun da təxəllüs qəbul etməsi belə maraqlı bir proses keçirmişdir.

Səməd Vurğun ilk şeirlərini "Səməd Vəkilov" və ya "Səməd Vəkil" imzaları ilə yazıbdır. Bəs, şair "Vurğun" təxəllüsünü haradan götürmüşdür?

Şairin məktəb yoldaşı Möhsüm Poladov yazır: "Səməd ilk şeirlərini yazarkən "Vurğun" təxəllüsünü qəbul etdi. Biz hamımız Səmədə zarafatla: "Kimin Vurğunusan?" deyəndə, açıq-açığına "Dürrənin" – deyərdi".

Yar əlindən yaman şikayətim var,
Məhəbbət uğrunda zəlalətim var,
Söylə bunu yara, əmanətim var,
Vurğun olub bir biçarə, de gəlsin!

Təmiz və səmimi qəlbə malik olan gənc şairə bu dövrdən

yüksək məhəbbət idealı hakim kəsilir. İlkin yaradıcılıq üçün bir növ lirik qəhrəmanı əvəz edən lirik "mən" şairin lirikasında alışır, yanır. Onu pərvanə ilə müqayisə etmək daha düzgün olardı. Bu lirik "mən" məcnunsayağı bir eşqə malikdir, lakin o, həyata bağlıdır, Məcnun kimi cəmiyyətdən uzaqlaşmamışdır. Gənc şair xəyalının qanadında pərvazlandırdığı böyük məhəbbətinin qarşısına adi "Səməd" adı ilə çıxa bilmir. Səməd dönüb yanmağı, pərvanəliyi bacaran Vurğun Səməd olur. Artıq məhəbbət meydanında o tək deyil, onun Vurğun kimi qəmxarı vardır:

Dolanır biçarə divanələr tək,
Hər ölkəni, hər diyarı Vurğunun.
Könlüm evidir xəstəxanələr tək,
Axtarır içməyə ağı Vurğunun.

Yaxud, aşağıdakı misralara nəzər salaq. Bunu Səməd tək deyə bilməzdi, belə bir qənaətə gəlmək üçün gərək Vurğun olasan:

Bəlkə bu dünyadan əl üzdüm artıq,
Qoy nə dərd bilənim, nə yarım olsun.
İlk dəfə eşqimi söylədiyim yer
Boranlı bir gündə məzarım olsun.

Vurğun Səmədin lirik "mən"i Füzuli lirik qəhrəmanına məxsus bir hisslə yaşayır. Sevgilisinə yetməyən aşiq hər cövrə razıdır ki, sevgilisini xatırlaya bilsin, xəyalən ona qovuşsun. Yəni "ilk dəfə eşqini söylədiyi yerdə məzara gömülməklə" o, mənəvi-ruhi rahatlıq tapar, özünü sevgilisinə qovuşmuş hesab edər. Bu da bir qovuşuq tərzidir. Bu əsl mənada aşiqanə, romantik bir sevgidir.

Füzulinin lirik qəhrəmanı öz aşiqinə qovuşmaq üçün görün nə arzulayır:

Çəkdim yolunda əksini cismi-zarımın,
Bəlkə ayağını öpə bildim nigarımın.

Füzulinin aşiq lirik qəhrəmanı hər şeydən əlini üzüb, o bilir ki, sevgilisinə qovuşmaq çox müşkül işdir. Bəs bu müşküllüyü neçə həll etməli?

Üzün xəyalın etmək gözəldi görməkdən
Yetər dəxi, səni ey çeşmi-pürnəm, istəmirəm.

Bəzən Vurğunun lirik “mən”i də estetik cəhətdən Füzulinin lirik qəhrəmanını xatırladır:

İlk dəfə eşqimi söylədiyim yer,
Boranlı bir gündə məzarım olsun.

Budur, Vurğunun lirik “mən”i öz cəfalı və dərdli vəziyyətindən bir anlığa çıxış yolu tapır. Lakin bu ani olur. Öz yatağına sığmayan məhəbbət dalğası sevgiliyə xəyalən yox, cismən qovuşmaq istəyir, o, burada Füzuli aləmindən uzaqlaşıb Vaqif dünyasına qədəm qoyur, gah sevgilisindən şikayətlənir, gah ona yalvarır, gah da hər şeydən cana doyaraq qəzəb qılıncını sıyırır, nifrət yağdırır. Lirik “mən”in – “Vurğunun” düşdüyü bu psixoloji vəziyyətlərə uyğun olaraq şair Səməd işlətdiyi poetik təxəllüsləri də dəyişir, gah “Vurğun”luğunda qalır, gah “Düşgün” olur, gah “Dəli şair”, “Zavallı Vurğun”, “Xəstə Vurğun”, gah da bunların hamısını unudurmuş kimi “Səməd Vəkil” olur – sakitləşir, özünə qayıtmaq istəyir.

“Səməd Vurğun” poetik təxəllüsü isə daşıdığı bədii-estetik siqlətə görə əvvəlkilərdən tamamilə fərqlənir və Səməd Vurğunun bütün yaradıcılıq kredosunu əhatə edir.

1927-ci ildə özünü “dağların yeni yazan cavan şairi” adlandıran şair artıq 20-ci illərin sonuna doğru yaradıcılığında ciddi axtarışlar dövrü keçirir, romantik xəyal qanadları üzərində qurduğu məhəbbət dünyasından real aləmə enməyə başlayır. Bu

dövrdə artıq onun “Cavanlara xitab”, “Ondan da gö- zəldir”, “Orda”, “Hazır olun”, “Oktyabr”, “Dan ulduzu”, “Sənət”, “Uzaqlara doğru”, “Əyilmə”, “Son söz” və “Dəli şair”dən olan şeirlər silsiləsi sırf ictimai-siyasi məzmunları ilə diqqəti cəlb edir.

1929-cu ildən etibarən S.Vurğunun şəhər mühitinə düşməsi, Moskva Dövlət Universitetində təhsil alması, qızğın ədəbi mübahisələr axınında fəal iştirakı onun yaradıcılıq imkanlarını daha da artırır. Bu illər ərzində onun şeirləri daha tez-tez çap olunmağa başlayır. 1930-cu ildə “Şairin andı” adlanan ilk şeirlər kitabı nəşr edilir. 1932-ci ildə isə S.Vurğunun “Fanar” adlı ikinci şeirlər məcmuəsi çapdan çıxır. Artıq bu zaman S.Vurğunun yaradıcılığı daha yeni bir keyfiyyət almağa üz qoymuşdu: şeirlərindəki mücərrəd romantika getdikcə zəifləyir, inqilabi romantika isə qüvvətlənir, realizm qol-qanad açırdı.

Belə ki, “Şairin andı” və “Fanar” kitablarında toplanan şeirlərin əksəriyyəti dövrün yeni səsi idi. Hələ 1928-ci ildə yazılan “Andım” şeiri ilə saflaşmağa başlayan bu səs:

Mən and içmişəm ki, bir də qələmim
Gözəllərdən ilham almayacaqdır.
Peymanını pozan xəyal həmdəmim
Dərgahıma sayə salmayacaqdır.

– deyə-deyə “Hərəkət”, “Şairin səsi”, “Yeni dünya”, “Hazır olunuz”, “Raport”, “Rot-Front”, “Aprel”, “Oktyabr günləri”, “Hücum”, “Yoldaş-hinker-amxanaqo” əsərlərində daha da gurlaşdı, özünün ideya-siyasi aydınlığı ilə diqqəti cəlb etdi.

Bu şeirlər günün ən aktual məsələlərinə həsr olunmuş, mövzu yeniliyinə, ifadə xüsusiyyətlərinə, siyasi pafosuna görə, həmçinin yaradıcılıq axtarışları kimi də çox maraqlıdır. Bu şeirlərdəki yeni xüsusiyyətlərdən biri də S.Vurğunun təzə və köhnə həyat, habelə zaman konfliktini həll edərkən tapdığı or-

jinal bədii obrazlardır ki, bunlar yeni şeirin inkişafı üçün mühüm amillərdən idi. Bu obrazların cızdığı xarakterin özünü zaman yaradır. O, zamanın övladı kimi çıxış edir:

Mən
nəfəsləri benzin
və kükürd qoxulu
Milyonların şairiyəm,
Düşməniyəm onların –
Divanları məxmər
və ipək döşəməli
salonların.

Bu yeni insan zamanla qovğaya çıxaraq, onunla üz-üzə gəlir və getdikcə yeni xarakter kimi formalaşır. Bu əsil İnsan və Zaman dilemmasıdır. O, *“aciz xülyaları”, “səfil gecələrin sərxoş röyalarını”, “suların düyümlü səsini”* unudaraq öz mənəvi dünyasına, insanlıq aləminə boylanır, mənəviyyatında yaşayan “*xəstə qurdu”* öldürərək özünü yenidən tapır.

“Yeni həyatı çiyinlərində” aparan lirik xarakter öz yüksəlişi yolunda bir həqiqəti daha yaxşı başa düşür:

Zaman axıcı bir su,
görürəm bunu.
Dəyişir
və dönür
Bəşər fikri,
bəşər duyqusu.

Zamanın belə bir vüsət axınında dəyişən, yeniləşən “bəşər fikri” kimi S.Vurğun şeirinin lirik xarakteri mənəvi cəhətcə dəyişir və bu prosesdə çətinliklərlə, psixoloji sarsıntılarla qarşılaşsa da,

xaraktercə getdikcə zənginləşir. Bu lirik xarakter “Raport”, “Fanar” şeirlərinin yazıldığı illərdə bir tərəfdən “Unutmadım adımı dolaşıq çağıran suların düyümlü səsini...” deyirdisə də, digər tərəfdən də yüksək ahənglə:

İçim dalğalanır sanki bir dəniz,
Mən bu dalğalarla qucaqlaşıram.
Nələr düşünürəm duya bilsəniz,
Sanki varlığımdan uzaqlaşıram...

– deyərək, özünün mənəvi dünyasında gedən psixoloji ziddiyyətləri, dəyişməni səmimi şəkildə, gizlətmədən əyaniləşdirirdi.

Gerçəkliyin ən qızğın kürəsində alovlanan Səməd Vurğunun bir şair kimi ziddiyyətləri də buradan irəli gəlmiş və bu ziddiyyətlər prosesini obyektiv şəkildə izləməyən bir sıra tənqidçilər o dövrdə gənc şairə qarşı ciddi ittihamlar irəli sürmüşlər.

S.Vurğunun yaradıcılıq çətinlikləri, psixoloji-mənəvi formalaşma prosesi bu tənqidlərdə nəzərə alınmır, bəzən də sırf subyektiv cəbhədən qiymətləndirilirdi. Hətta, bir sıra vulqar təhlil üsulu gənc şairin inkişafına xələl yetirir, yaradıcılıq yolunu dumanlandırır, zamanın mürəkkəbliyini düzgün anlayan Səməd Vurğunu bəzən də çaşdırırdı. Buna görə də “Uzaqlara doğru” şeirində S.Vurğun, başqa şeirlərində olduğu kimi, məcbur olaraq özünün siyasi platformasını deklarativ şəkildə elan edir, şüarçılığa qapılır, düzlüyünü “sübut etməyə” çalışırdı. Onun “Şairin andı”, “Ölən şeirlərim” qəbildən əsər və misraları da bu cür yaranmışdı.

Lakin, gənc şair istər dövrün öz ziddiyyətlərindən, istər öz yaradıcılıq nöqsanlarından, istərsə də qeyri-elmi, subyektiv tənqidi fikirlərdən irəli gələn çətinliklərə mətinliklə sinə gərmiş, yolundan sapmamış, Azərbaycan sovet poeziyasının yaradılmasında ön cərgəyə çıxa bilmişdir.

S.Vurğun şeirinin yeni keyfiyyətlərlə zənginləşməsində üslubi amil kimi diqqəti cəlb edən romantikanın da mühüm əhəmiyyəti olmuşdur ki, bu onun ilk dövrdəki yazılarından özünü göstərir. S.Vurğunun ilkin qələm təcrübələrindəki romantik çalar gözəlliyə, yaxşıya, munisliyə aludəçilik şəklində aşkar olur. Bu aludəçilik onu bəzən mücərrəd romantizmə tərəf meyilli etsə də, şeirlərində saf, təmiz ruhlu romantikanın əsasını qoymaqda şairə kömək göstərmişdir.

S.Vurğun təbiətən, yaranışından xəyalpərvər, romantik əhvallı bir gənc olmuş və bu keyfiyyət əvvəl psixoloji, subyektiv hal kimi olsa da, sonralar onun yaradıcılığında ənənəyə bağlı şəkildə üslübi məziyyətə çevrilmişdir.

Böyük və qədim ənənələri olan Azərbaycan roman- tizmi XX əsrin əvvəllərində, xüsusilə qüvvətlənmiş M.Hadi, H.Cavid, A.Səhhət, A.Şaiq kimi mütərəqqi dünyagörüşlü nümayəndələri olan romantizm ədəbi cərəyanı yaranmışdı. Belə bir böyük ənənə Səməd Vurğun təbiətli gənc şairə öz müsbət təsirini göstərməyə bilməzdi.

Xüsusən H.Cavid və A.Şaiq yaradıcılığı, M.Hadi şeirinin geniş təsir dairəsi 20-ci illər ədəbi gəncliyinə yaxından tanış idi və onların mənəvi qida mənbələrinin bir hissəsini təşkil edirdi.

Romantizmə mənsub şeirlərin yüksək pafosu, zəngin obrazlar sistemi, bədii təsvir vasitələri, görünür S.Vurğunun ruhunu oxşamış və o yeri düşdükcə bu ədəbi cərəyandan yaxşı cəhətləri öyrənmişdir. Şair bu məktəbdən öyrənərkən belə orjinal olmuş, təsirlənməkdən çox, yeni həyatın təsdiqində romantik təsvir vasitələrindən böyük məharətlə istifadə etmişdir.

XX əsr romantikləri də “klassik şeir obrazlarından, epitetlərindən – təşbehlərindən istifadə edirdilər, lakin bu obrazlar, təşbehlər bunlarda tamamilə yeni məzmun kəsb edir, yeni fikirləri, ideyaları ifadə edirdi”. Romantiklərin klassik şeirin bədii təsvir vasitələrinə yaradıcı münasibətini tam şəkildə Səməd Vurğunun

da onlara münasibəti kimi qəbul etmək olar. Çünki həmin bədii ifadə vasitələri XX əsr romantiklərinin fikir və ideyalarına deyil, yeni dövrün yeni şairinin ideyalarına xidmət edirdi.

"Romantiklər dövrün siyasi-ictimai hadisələrini, inqilab ilə irticanın mübarizəsini çox yerdə təbiət hadisələrinin təsviri yolu ilə verirdilər.

S.Vurğun da, bu üsuldan istifadə edir, özünün ictimai-siyasi fikirlərini, çox vaxt da, daxili mənəvi sarsıntılarını təbiətə müraciət yolu ilə bildirirdi. Gənc şairin "Göygöl", "Orda", "Dilcan dərəsi", "Çiçək", "Dan yıldızı", "Kür çayı" şeirləri məhz belə yaranmışdır. Bu şeirlərdə xəyalpərvər bir şairin yeni həyat, yeni dünya haqqında hissləri, yeni dövrün keçmişdən fərqi, həyatın nəşəsi, yaxud da, psixoloji-mənəvi halları ("Çiçək", "Bir qətrə yaş" və s.) tərənnüm olunmuşdur. Bu şeirlər içərisində "Göygöl", "Dan yıldızı", "Kür çayı" sırf romantik üslubda yazılmış və "Fanar" kimi dərin siyasi və simvolik şeirin yaranması xəttini təşkil etmişdir.

"Dan yıldızı" şeiri romantik forma və məzmununa görə çox fərqlənir. "Göygöl" və "Kür çayı" şeirlərində təkcə bir obraz romantik-simvolik xarakter daşıyırdısa, daha doğrusu, məzmun real, forma romantik üslubda idisə "Dan yıldızı" şeirinin həm məzmunu, həm də forması romantik şeirin bütün tələblərinə tam cavab verirdi. Burada mühüm siyasi-ictimai ideya romantik şeirə məxsus üslubi bir keyfiyyətlə ifadə olunmuşdur. Şeirdə səhərin açılması emosional şəkildə tərənnüm edilir. Gənc şairin təsvir etdiyi səhər, bu səhərin doğduğu dan ulduzu tamamilə yenidir, əvvəlkilərdən çox-çox fərqlənir.

XX əsrin romantikləri də açılan səhərə, doğan günəşə, qaranlıqları boğan dan ulduzuna müraciətlə şeirlər yazmış, onun yolunu gözləmiş, qurtuluş diləmişlər. A.Şaiqin "Ülkər" şeirində oxuyuruq:

Sənədir ümidim, ey parlaq ülkər,
Mən də bir yolçuyam azğın, dərbədər,
Qurtuluş yolunu mənə də göstər[1].

Romantiklər “günəş”, “səhər”, “dan ulduzu” kimi bədii obrazları inqilab, azadlıq, demokratiya timsalında işlətmiş, bu obrazlardan məqsədəuyğun şəkildə bədii vasitə kimi istifadə etmişlər. M.Hadi “İlaheyi-hürriyətə” şeirində “qaranlığı” istibdadın, “ziyanı”, “işığı”, “səhəri”, “nəsimi – səhər küləyini” hürriyyətin, inqilabın əksi kimi vermişdir.

20-ci illər Azərbaycan ədəbi mühitində özünəməxsus yeri olan Əhməd Cavadın 1914-cü ildə qələmə aldığı və eynilə “Dan ulduzu” adlanan şeiri də XX əsr romantiklərinin təsiri altında yazılmış, lakin Ə.Cavad onlardan irəli gedə bilməmiş, əksinə A.Şaiq ideyasını eynilə təkrar etmişdir:

Bu qaranlıq gecə nə qədər sürdü,
Yetiş imdadıma, ey dan ulduzu.
Barı sən gəl, mənə yuxu gəlmədi,
Yetiş fəryadıma, ey dan ulduzu[1].

Səməd Vurğunun 1927-ci ildə qələmə aldığı “Dan ulduzu” şeiri isə üslub cəhətdən olmasa da məzmunca bunlardan fərqlənirdi. Buradakı lirik xarakter ağlamır və yaxud ümidsiz-ümidsiz gözlərini üfüqə dikmir, sonsuzluqdan imdad diləmir; o artıq hadisələrin içindədir, azadlığın, inqilabın carçısıdır, əldə etdiyi azadlıq səhərini seyrə daldıqca sonsuz bir fərəh və sevinc duyur.

Romantiklərdə olduğu kimi “tufan”, “yel”, “səhər”, “yaz günəşi”, “qarlı qış”, “şimal rüzgarı” kimi ifadələr Səməd Vurğun

[1] Şeir Məmməd Cəfərin “Azərbaycan ədəbiyyatında romantizm” kitabından götürülmüşdür. Bakı: 1963, s. 78.
[1] Əhməd Cavad. Şeirlər. Bakı: Azərnəşr, 1958, s. 27.

şeirində müstəqim məna deyil, məcazi məna kəsb edir və zamanın ictimai-siyasi mahiyyətini əks etdirir.

Beləliklə, “Fanar” şeirinə qədər S.Vurğunun romantik üslubu getdikcə cilalanır, formalaşır, özünün təsir mənbələrindən fəqlənərək orjinal, yeni bir keyfiyyətə keçir. Bu şeir S.Vurğun romantikasının perspektivasını müəyyənləşdirir, inqilabi romantikanın nümunəsi kimi diqqəti cəlb edir. Lakin bu şeirlərin hamısına romantik üslub hakim olsa da, onlarda romantik ehtiras hələ zəifdir.

“Fanar” şeirindən başlayaraq S.Vurğun romantikası özünün bəhrələnmə hüdudlarını genişləndirir, “sosialist estetikasının təcrübi məktəbi” olan Mayakovski şeirinə yaxınlaşır. Bu cəhəti böyük təvazökarlıq və ürək genişliyi ilə xatırlayan S.Vurğun yazır: “Mənim otuzuncu illərdə yazdığım “Raport” və “Fanar” əsərlərim bilavasitə Mayakovskinin təsiri altında yaranmışdır.

... “Fanar” şeiri bütün dünyada kommunizmin qələbəsinə inam ruhunda yazılmışdır... Həmin şeir mənim yaradıcılığımı geniş sosializm realizm yoluna aparıb çıxartdı”.

Şeirin mərkəzində yeganə olaraq romantik fanar obrazı durur. Lirik xarakterin hiss və düşüncələri, qənaətləri, ideya və fikirləri bu romantik-simvolik obraz ətrafında mərkəzləşir.

S.Vurğunun fanarı adi fanar deyildir, bu, yeni dövrün, təzə zamanın, sosialist inqilabının romantik obrazıdır:

O fanar
işıqlanar,
aydınladar
Şərqin sönən,
söndürülən
ülkərini...

Göründüyü kimi, obrazlar yeniləşmiş, ənənəvi obrazların

özünə münasibət dəyişmişdir. Artıq dan ulduzu əvvəlki bədii ideya funksiyasını daşımır. Onun özünün işıqlanmasına, yanmasına səbəb lazımdır, bu səbəb isə fanar olmuşdur. Təkcə “Şərqin sönən, söndürülən ülkəri” misrası, Şərqin böyük tarixi keçmişini ani olaraq assosiativ şəkildə göz önünə gətirir, panoram bədii lövhə yaradaraq yeniliyin əhəmiyyətini, qüdrətini, əzəmətini canlandırır.

Məlum olduğu kimi, S.Vurğun sərbəst şeir formasında ilk dəfə 1929-cu ildə “Şairin andı” şeirini yazmış, sonralar isə bu formada bir sıra əsərlər qələmə alsa da, sərbəst şeir onun yaradıcılığında əsas yer tuta bilməmişdir.

S.Vurğunun sərbəst şeirə meyl göstərməsi 20-ci, 30-cu illər ədəbi mühitində baş verən hadisələrə daha çox uyğundur və bir çox şairlər kimi S.Vurğun da bu hadisədən kənarda qalmamışdır.

Bu dövrdə şairin dünyagörüşü də xeyli inkişaf etmişdi. Onun Moskva Unversitetində təhsil alması, 1931-ci ildə Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunda ədəbiyyat üzrə aspiranturada bir müddət oxuması, “Könül dəftəri” adlı üçüncü şeirlər kitabının (1934-cü ildə) çapdan çıxması şairi ədəbi mühitdə yaxşı tanıtmış və o, ədəbi mübarizələrin ön sıralarına keçmişdi. Beləliklə, S.Vurğun 1934-cü ildə Azərbaycan Sovet Yazıçıları İttifaqının məsul katibi vəzifəsinə irəli çəkildi və Sovet yazıçılarının I Ümumittifaq qurultayına nümayəndə göndərildi, eyni zamanda SSRİ Yazıçılar İttifaqının İdarə heyətinə üzv seçildi. Bu dövrdə o, sovet yazıçıları ilə yanaşı böyük proletar yazıçısı A.M.Qorki ilə görüşüb və onunla yaxından tanış oldu. 1935-ci ildə S.Vurğun ZSFSR[1] Mərkəzi İcraiyyə Komitəsinin üzvü seçildi. Bu illərdə Səməd Vurğun artıq həm yaxşı şair, həm də ictimai xadim kimi xalq kütlələri içərisində tanınmışdı, həmin dövrdə onun yaradıcılığı sürətlə inkişaf edirdi, “təkcə 1935-ci ildə şair 7 poema

[1] Zaqafqaziya Sosialist Federativ Sovet Respublikası

və 100-ə qədər şeir yazmışdır".

Əgər bundan əvvəlki dövrdə Vurğun yaradıcılığını çılğın bir dağ çayına bənzətmək mümkünsə, indi bu dağ çayı daşıb çağlayan nəhri xatırladırdı ki, onun qarşısında intəhasız düzənliklər, susuz səhralar dururdu... Əgər dağ çayının çılğınlığı astanlardan, dərələrin qıvrımından, eniş-yoxuşundan asılı olaraq dəyişirdisə, bu nəhr aramla, təmkinlə, daxili qüdrət və əzəmətlə axır... Onun özünəməxsus ləpədöyümü, dönümləri və ləngəri vardır... Bu nəhr düzləri, səhraları yara-yara keçir, özünün əbədi, dəyişməz yatağını yaradırdı...

Belə ki, S.Vurğun şeiri 30-cu illərdə vahid poetik yatağa düşüb, öz axarını – üslubunu qəti müəyyənləşdirdi. Artıq axtarışlar, tərəddüdlər, "inandırmalar" dövr arxada qalmışdı, qarşıda isə dəyişməz estetik-bədii idealın, bitkin, kamil poetik xarakterin formalaşması yolu dururdu.

Əvvəlki illərdən fərqli olaraq S.Vurğunu həyatın əsas bir cəhəti daha çox cəlb edirdi – yeni quruculuq, kollektiv əmək sevinci və bunun insan psixologiyasına, şəxsiyyətinə təsiri...

Məsələnin bu cür qoyuluşu, poetik problemin bu baxımdan həlli poeziyanı həyata yaxınlaşdırdı, faktın rasional cəhətlərini ön plana keçirtdi, şeirin publisistik ruhunu qüvvətləndirdi, onun samballı problematikasını yaratdı.

Əsrlərdən bəri ağır, yorucu zəhmətin altında əzilən, cılızlaşan sadə əmək adamları humanist və əzəmətli sosializm quruculuğu yolunda yenə də ağır və çətin zəhmətdən nədənsə yorulmur, əzilmir, cılızlaşmırdı, əksinə –

...Dillərdə bayatı, kəsmə şikəstə
Arxın kənarında pambıq dərirlər.
Biləklər çirməkli, döşlər önlüklü,
Çöldə traktorun səsi canlanır,
Obalar şənlənir, həyəcanlanır.

Səslənir yamaclar, dağlar, dərələr,
İnsanı güldürür bu mənzərələr.

Lirik xarakterin fərəhi, nəşəsi yerə-göyə sığmır, o əfsanəvi bir qüvvəyə, yeni romantik bir vüsətə malikdir. Onun istəyi, arzusu da xeyli fərqlidir; yorulmaq bilməyən zəhmətkeşdir, birlik və qardaşlıq istəyən humanist beynəlmiləlçidir...

S.Vurğunun şair qələmi, nüfuzu hansı bir gerçəklik faktının üzərində dayanırsa-dayansın orada zəhmətin yaratdığı insan sevinci, insan gülüşü və bu əməyə münasibətdə insanın yeni mənəviyyatı ön planda olur...

İndi mövzuya, hadisəyə, gerçəkliyə romantik baxışın mahiyyəti də tamam yeni və özünəməxsus xarakter kəsb edir. Əgər əvvəllər bu romantik baxış ənənədən gələn ayrı-ayrı bədii obrazlar vasitəsilə aşkar olurdusa, poetik faktın özü romantik dona geydirilirdisə, indi romantika hadisənin özündən doğur. Poetik hadisənin elə cəhətləri, elə cizgiləri götürülür və sözlər elə ehtirasla sıralanır ki, mahiyyətin özü romantik fonda göz önündə canlanır.

Bu illərdə S.Vurğunu kamil forma, yüksək bədiilik məsələsi də ciddi düşündürürdü. Çünki bunsuz dəyişən, yeniləşən zamanın sürətini vermək mümkün olmur, kamil forma, məzmun gözəlliyinə də təsir edir, onu düzgün ünvanlaşdırır. Bu baxımdan şair heca vəzninə bacarıqla yanaşmış, ona müvəffəqiyyətli orijinal əlavələrini etmiş, şeirin forma və ifadə imkanlarını artırmağa müvəffəq olmuşdur...

Forma və bədii keyfiyyətlə yanaşı bu illərdə S.Vurğun şeirində çoxcəhətli məzmun, mövzu genişliyi də yarandı. Hər bir həyat hadisəsi, gerçəkliyin adi faktları, məişət mövzularından tutmuş geniş ictimai mövzulara qədər S.Vurğun qələmində eyni ciddilik, eyni təmkinliliklə öz əksini tapırdı. Şair üçün ciddi, yaxud qeyri-ciddi mövzu yox idi. Çünki onun nəzərində həyat

müqəddəs bir varlıq kimi ucalmışdı, ən adi, gündəlik hadisə belə onun şeirində böyük ictimai, siyasi, fəlsəfi mahiyyət kəsb edirdi.

30-cu illərdə şairin bir sıra müasirləri şeirə, sənətə vulqar münasibət bəsləyir, mövzuları ciddi və qeyri-ciddi deyə, süni şəkildə bölür, insani hissləri, psixoloji tərənnümü, insanın mənəvi aləminə yenməyi əsas hesab etmir, poeziyanın qapılarını məhəbbət və mənəvi mövzuların üzünə bağlamağa çağırır, sosializm quruculuğu dövrünün təsvirinə birtərəfli yanaşırdılar.

Məhz belə ziddiyyətli və zərərli fikirlərə qarşı nəzəri cəhətdən etirazını bildirən S.Vurğun təcrübi şəkildə də sübut etmək istəyir ki, poeziya bölünməzdir, tamdır və vahid bir məqsədə qulluq edir. Bunun üçün o, macar şairi Hidaşdan iqtibas etdiyi, lakin tam sərbəst yazdığı böyük "Sevgi" şeirini çap etdirir. Şeirə başlıq yazan redaksiya xatırladır ki, "Sevgi" S.Vurğunun yeni sevgi lirikası yaratmaq uğrunda cəhdidir[1]. Bunun ardınca S.Vurğun "Sevgi", "Sevirəm", "Bəzək və zinət", "Anamın dərdi", "Sevgilimin qılığı", "Dəniz gəzintisi", "Çənə söhbəti", "Cəbhədə", "Təranə" kimi silsilə məhəbbət şeirlərində və "Komsomol poeması"nda romantik səpkili geniş məhəbbət lövhələri yaratmış, müasir həyatda bəşərin müqəddəs anasına çevrilmiş qadının geniş ictimai rolundan bəhs etmişdir.

Şərq qadınının yeni obrazı və onun keçdiyi tarixi yol S.Vurğunun 30-cu illərdə yazdığı epik lövhələrdə də öz əksini tapmışdır. "Komsomol" poemasındakı Humay, Gülzar obrazları; "Macəra"dakı qadının keçdiyi acı həyat yolu, çatdığı səadət; yeni həyatın yaratdığı Xumar ("Xumar"), "Acı xatirələr"dəki zavallı ana; xalq əfsanələrindən alınmış "Qız qayası", "Aslan qayası", "Ölən məhəbbət" poemalarından göz önündə canlanan həyat tərzi təkcə Azərbaycan qadınının keçmişi, bu günü və gələcəyi deyil, bütün Şərq qadınlarının ümumiləşmiş dərdləri, həyəcanları və

[1] "Hücum" jurnalı, 1932-ci il, №3-4, s. 27

arzularının təsviri idi...

Beləliklə, 30-cu illərin ortalarına doğru "Azərbaycan" şeirinin yaranması prosesində, artıq, S.Vurğun poeziyasının lirik qəhrəmanı konkret şəkildə mövcud idi. Şairin ayrı-ayrı şeirlərində yaranan, çox zəngin müasir insanın ən aparıcı, rəngarəng xarakterik cizgilərini özündə cəmləşdirən lirik xarakterlərin vahid obrazı – lirik qəhrəman tam, bütöv şəkildə göz önündə canlanır... Artıq bu qəhrəmanın halı, xasiyyəti, idealı, mənəvi görüşləri, həyata baxışı gerçəkliyi qavrama bacarığı bütün insani keyfiyyətləri bitkin bir lirik obraz yaratmışdır. Bu sosialist ölkəsi vətəndaşının ən tipik, ümumiləşdirilmiş lirik surətidir ki, "Azərbaycan epopeyası"nın yaradılması yolunda tipik bir xarakter kimi təşəkkül etdi və zəmanəmizin ən qabaqcıl mənəvi zənginliyini özündə birləşdirən müasirimizə çevrildi.

Epopeyanın proloqu kimi nəzərdə tutulmuş "Şairin türküsü" oxucuların dilində vətən mahnısına çevrilmiş "Azərbaycan" şeiridir. Əslində, bu müqəddəs Vətən haqqında türküdür – nəğmədir, bir ölkənin, bir millətin məhəbbət mahnısıdır...

Məlumdur ki, ədəbiyyatımızda istər Səməd Vurğundan qabaq, istər onun yaşadığı dövrdə, istərsə də sonralar Azərbaycan, Vətən məhəbbəti mövzularında, hətta adları da "Azərbaycan", "Vətən" olan onlarca şeir yazılmışdır. Bu şeirlərin əksəriyyəti doğma Azərbaycana, müqəddəs Vətənə olan böyük məhəbbəti bilavasitə əks etdirmək, onu nəğməyə çevirmək ehtiyacından yaranmışdı. Ancaq zaman keçdikcə bu ehtiyacı – Vətən nəğməsi ehtiyacını nisbətən S.Vurğunun "Azərbaycan"ı ödəyə bildi, xalqın könül rübabını oxşadı, Azərbaycan ölkəsinin məhəbbət mahnısına çevrildi.

S.Vurğun haqqında yazanların, onun yaradıcılığını tədqiq edənlərin əksəriyyəti bu və ya digər məqsədlə "Azərbaycan" şeirinə müraciət ediblər. Şairin dramaturgiyasında "Vaqif" zirvə hesab edilirsə, lirikasında isə bu zirvədə dayanmaq "Azərbaycan"

şeirinə nəsib olmuşdur. Bu şeir Vurğun poeziyasının vuran qəlbi – poetik açarıdır.

S.Vurğun özü də bu şeirinə belə yanaşmış, onun bədii-estetik qayəsini "həyat proqramı" hesab etmişdir: "Azərbaycan" şeiri mənim həyatıma, bütün həyat proqramıma uyğundur. Mən nə qədər yaşayıb-yaratsam, 1933-cü ildə yazdığım bu kiçik şeirə aşıladığım motivləri bütün əsərlərimdə oxuyacaq, duyacaqsınız".

Bəs, "Azərbaycan" şeirinin bu cür bədii-estetik dəyərinin sirri nədədir? Prozaik səslənsə də, bu, Vurğun şeirinin sadəliyində, səmimiyyətində, xalqına, vətəninə olan vurğunluğunda, onun məhəbbətinin ülvülüyündədir. Bu cür məhəbbət onun bütün yaradıcılığının mayasını təşkil edir...

Qeyd edildiyi kimi, "Azərbaycan" nəğmədir, Vətən haqqında məhəbbət nəğməsi! Onu oxumaq, zümzümə etmək, yalnız öz bəstəsində təkrar etmək lazımdır. Bu heç bir izaha, təhlilə ehtiyacı olmayan sirri, sehri özündə gizlənən Günəş timsalındadır. Onun hər cürə bədii-elmi təhlili nə qədər poetik və elmi olursa-olsun, yenə də Günəşin güzgüdə əks olunması kimi bəsit olacaqdır...

V.Q.Belinski yazır: "Rübabi ədəbiyyat yalnız musiqi ilə müqayisə edilə bilər. Hətta elə rübabi şeirlər var ki, onlarda şeir ilə musiqini bir-birindən ayıran hədlər demək olar ki, tamamən ortadan qalxır"[1].

"Azərbaycan" şeiri də belə mahiyyətlidir. Onun böyük vətəndaş qürurlu lirik qəhrəmanı Vətən haqqında bəstələdiyi mahnını qəlbinin tellərində çalır, oxucusunu, dinləyicisini əfsunlayır, sehirləyir:

Çox keçmişəm bu dağlardan,
Durna gözlü bulaqlardan;
Eşitmişəm uzaqlardan
Sakit axan arazları;

[1] V.Q.Belinski. Seçilmiş məqalələr. Bakı: Uşaqgəncnəşr, 1948, s. 15.

Sınamışam dostu, yarı...

Mən bir uşaq, sən bir ana,
Odur ki, bağlıyam sana;
Hankı səmtə, hankı yana
Hey uçsam da yuvam sənsən,
Elim, günüm, obam sənsən.

Gətirdiyimiz parçalardakı birinci bənddən sonra şeirin şah bəndinin nəğmə notları gəlir. Bu heç yerdə bir daha təkrar olunmur, elə şeirin başlanğıcındaca söylənilir:

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam məskənimsən.
Demək, doğma vətənimsən.
Ayrılarmı könül candan?
Azərbaycan, Azərbaycan.

Lakin buna baxmayaraq, bu bənd bütünlüklə şeirin akkorduna, nəqaratına çevrilir, sonrakı hər bəndi oxuduqca duyulmayacaq bir tərzdə sanki onlarla bərabər oxunur, "Azərbaycan, Azərbaycan" pıçıltıya çevrilmədən odlu hisslərin arasından göyərçin kimi pərvazlanır...

"Vətənin lirik obrazını yaradarkən şair yalnız peyzajdan deyil, milli xarakter üçün səciyyəvi xüsusiyyətlərin tərənnümündən, ölkənin maddi-mədəni sərvətlərinin təsvirindən, onun tarixi keçmişinə müraciətdən də istifadə edirdi. Bu, şeirdə Vətən obrazının bitkin və dolğun bir şəkildə, böyük ümumiləşdirici mənaya malik səpkidə meydana çıxmasına səbəb olmuşdur"[1].

Vətən obrazı! Bu obraz lirik qəhrəmanın səsində, mühakimə

[1] Azərbaycan sovet ədəbiyyatı tarixi, 2 cilddə, I cild, Azərb. SSR EA nəşriyyatı. Bakı: 1967, s. 269.

və hisslərində, möhkəm, ardıcıl qənaətlərində, bir də sonsuz məhəbbət və səmimiyyətində canlanır, şeirin pafosunda, ahəngində, musiqiliyində, xalq təfəkkürünün güclü obrazları qanadında, səslərin uyarlığında reallaşır, əyaniləşir:

Hey baxıram bu düzlərə,
Ala gözlü gündüzlərə;
Qara xallı ağ üzlərə
Könül istər şeir yaza;
Gəncləşirəm yaza-yaza.

Lirik qəhrəman ətrafına əqlinin, zəkasının, qəlbinin gözü ilə baxır. Bu baxışda onun öz boyu, öz ucalığı azlıq edir. Yox, öz boyun bərabəri baxsan bu qədər genişlik, bu qədər aydınlıq və bu qədər vüsət görüb, duyub anlaya bilməzsən. Bunun üçün zirvə lazımdır! Uca Qafqaz zirvəsi, Kəpəz, Qoşqar, Heydərbaba zirvəsi!

Sanki lirik qəhrəman bu zirvələrdə hakimdir və təsəvvürünüzə gətirin ki, onun ixtiyarında XX əsrin lazer, elektronika möcüzəsinin yaratdığı, bütün zaman və məkan sədlərini keçə bilən ecazkar kino-kamera qurğusu vardır. O, bu qurğunun qüdrəti ilə Azərbaycanın keçmişindən tutmuş bu gününə qədər bütün gözəlliyini əks edir, obyektivi gah uzaq tarixlərin, zamanların arxasına, gah bu günə, gah da gələcəyə tuşlayır, əqlin, zəkanın dərketmə, duyma məsafələrini, görmə bucaqlarını tez-tez dəyişir, dinləyicini nəğməsinin – bu əzəmətli nəğmə-dastanının sonuna qədər öz sehrində saxlayır...

Oxucu, gah "Bilinməyir yaşın sənin, Nələr çəkmiş başın sənin", "Düşdün uğursuz illərə, Nəs aylara, nəs illərə" misralarının fikir tutumunda, xəyal qanadında uzaq tarixlərə səyahət edir, ani olsa da minillikləri fikrin önündən keçirir, yaxşını-yamanı xatırlamalı olur və obyektiv öz istiqamətini qəflə- tən dəyişir, bu günlərə düşürsən; gah Xəzərin ləpədöyənində dincəlir, gah Muğanın zəmilərində addımlayır, Astarada, Lənkəranda limonlu

çaya qonaq olur, xalı-xalçalar üzərində, göy çinarların kölgəsində dincəlir, Qarabağın ürək açan mənzərələrinə baxa-baxa Xanın məlahətli zəngulələrinə qulaq asır, “əli qələm, sinəsi dəftər” nizamilərin, füzulilərin poeziya sehrinə düşürsən, xoşbəxt gələcəyə xəyalın səyyar qanadlarında səyahət edirsən...

“Azərbaycan” şeirinin misraları dar, kiçik olsa da (şeir hecanın 8-lik növündə 4-4 bölgüsündə yazılıb) məna tutumu, hiss gücü hədsiz bir genişliyə malikdir. Böyük mənanı, ehtiras dolu hissi vermək üçün səkkizliyin seçilməsi şairdən böyük cəsarət tələb edirdi, çünki fikri sonsuz dərəcədə qısa, lakonik, aforistik bir tərzdə vermək lazım gəlirdi.

Bu isə şeirin kamil yaranışına əsas vermiş, çətin olsa da məzmuna uyğun forma tapılmışdır. Bununla yanaşı, səs məsafələrinin yaxınlığı şeiri nəğməyə çevirmiş, eyni xallı səslərin təkrarı şeirdə harmonik fon yaratmış, hər bir bənddə zəngin səs uyuşmaları şeirin musiqililiyini artırmışdır:

Min *Qazaxda* köhlən *ata*,
Yalmanına *yata-yata*,
*At* qan-tərə *bata-bata*
Göy *yaylaqlar* belinə *qalx*,
Kəpəz dağdan *Göy gölə bax*...

Burada istifadə edilmiş sözlərin hamısında alletriativ ünsür vardır. Kursivlə verilmiş sözlərin yaratdığı ahəng havacatın əsasını təşkil edir. Beləliklə, bəndlərin hamısını bu qaydada nəzərdən keçirsək eyni mənzərənin şahidi olarıq.

Göründüyü kimi, şair söz sənətinin mahir ustası kimi qələmini tişəyə çevirib qranit söz qayalarından böyük sənət abidəsi ucaltmağa nail olmuşdur. Bu abidənin proobrazı Azərbaycandırsa, onu ülvi bir məhəbbətlə sevən lirik qəhrəmandır, bizim qabaqcıl, doyumlu-duyumlu mutəfəkkir müasirimizdir.

Bu lirik qəhrəmanın yetkinliyi, kamilliyi, mənəvi zənginliyinin sonsuz rəngarəngliyi hələ öndədir. Buna qədər o hələ formalaşırdı, xarakterсə möhkəmlənir, mənəviyyatca təşəkkül edirdi...

"Azərbaycan" şeiri onun hələ gələcək yolunun məramnaməsi, ideyasının nizamnaməsi, poetik aləmini işıqlandıran proqramıdır...

Bu hələ böyük humanizmin, vətənpərvərliyin, beynəlmiləlçiliyin, xəlqiliyin başlanğıçıdır, möhtəşəm Vurğun poeziya simfoniyasının Vurğun uvertürasıdır...

## ŞAİRİN POEZİYASINDA LİRİK QƏHRƏMANIN YETKİNLİYİ

30-cu illər ədəbiyyatı dövrü prinsipə əsasən bütöv götürülsə də, ayrı-ayrı sənətkarların fərdi yaradıcılıq prinsipinə görə bu, bir neçə yarım dövrə ayrıla bilər. Əgər ədəbi dövr ictimai-iqtisadi inkişafın qanunauyğunluğu əsasında verilirsə fərdi yaradıcılığın təşəkkül dövrü, xüsusən poeziyada onun ideya-estetik prinsiplərinin inkişafı yeni keyfiyyətlər kəsb etmə pillələri əsasında götürülə bilər.

Təsadüfi deyil ki, S.Vurğunun tərcümeyi-halı yazılarkən bu cəhət bəzən haqlı olaraq diqqət mərkəzində dururdu. Tərcümeyi-halda oxuyuruq: “1935-37-ci illər S.Vurğunun həyatında ayrıca bir mərhələ təşkil edir. Sosializmin bütün cəbhə boyu hücumu 1934-cü ildə qələbə ilə başa çatmışdı. Bütün sovet xalqının həyatında olduğu kimi, yazıçıların yaradıcılığında da qələbə ruhu hakim idi. Bu dövrdə S.Vurğun partiya və dövlət işində, siyasi mübarizənin gedişində də fəal surətdə iştirak edirdi. O, öz siyasi lirikası və atəşin çıxışları ilə mahir bir natiq kimi də tanınmışdı”. Səməd Vurğunun yaradıcılığı təkcə bu illərdə deyil, 1941-ci ilə qədər və habelə 1941-1945-ci illər ərzində görünməmiş bir sürətlə inkişaf edir, onun istedadı rəngarəngliyini, çoxcəhətliliyini və yüksək keyfiyyətlərini tam aydınlığı ilə vahid axarda göstərə bilir. Şairin poeziyasında sosialist lirikasının bədii ideya-estetik prinsipləri bütün zənginliyi ilə aşkar olur.

Həmin illər arasında S.Vurğun həyat və yaradıcılığının geniş mənzərəsinə qısa bir nəzər salsaq yəqin edərik ki, böyük sənətkarın təkcə bu dövrdəki yaradıcılığı onu qabaqcıl sovet yazıçılarının ön cərgəsinə çıxarmaq qüdrətinə malikdir və şairin yaradıcılığının sonrakı mərhələləri isə bu qüdrətin əzəmətini nümayiş etdirmiş oldu.

Bunun bir səbəbi də şairin leninizm ideyalarına arxalanması

idi. Ümumiyyətlə, S.Vurğun poeziyasında canlanan lirik qəhrəman ən çətin anında, ən xoşbəxt çağlarında leninizmə arxalanmış, dahi V.İ.Leninin inqilabi nəzəriyyəsindən istiqamət almışdır:

Son andım:
Leninizm bayrağımız,
Hindin uzaq sahilində
alınacaq sorağımız.

S.Vurğun ən müxtəlif mövzularda belə V.İ.Lenin ideyalarına qayıdır, ona müraciət edir, şeirinin qayəsini, estetik münasibətini leninizm mövqeyindən şərh edir. Elə buna görə də şair, V.İ.Lenini "zamanın ən böyük qəhrəmanı" adlandırır, özünün insan və həyat konsepsiyasını belə müəyyənləşdirir:

Bir qoca dünyanın yeni mənası
Leninin əlindən aldı yadigar...
Yıxıldı ağalar, qullar dünyası,
Zamanın Lenin tək bir dühası var,
İnsan eşitdiyi o böyük ürək,
Biz də insanları Lenin tək sevək.

"Leninin eşqilə çiçəklənən" bir dövr uğrunda canlarını əsirgəməyən partiya və dövlət xadimlərinin şəxsiyyəti və aparıcı xarakterləri də S.Vurğun şeirinin lirik qəhrəmanı üçün V.İ.Leninin xatirəsi tək əziz olmuşdur. O, Lenin ideyaları uğrunda qəhrəmanlıqla şəhid olmuş 26-ları da, faşistlərə qarşı sinə gərmiş kommunist K.Dmitrovu da, tətil zamanı öldürülmüş fransız Eduard Mazeni də, V.İ.Leninin yaxın silahdaşı K.Y.Voroşilovu da eyni məhəbbətlə xatırlayır, yad edir, nəğməli dodağında onlar haqqında mahnı oxuyur.

Beləliklə, Səməd Vurğun yaradıcılığında əsas ideya-estetik istiqamət 30-cu illərin ortalarından leninizm ideyaları əsasında daha da qüvvətlənərək özünün kamilləşməsi dövrünü keçirirdi.

S.Vurğun lirikasının ideya-estetik əsasını, həmçinin sosialist həyat tərzindən yaranan sonsuz sevinc və nəşədə axtarmaq lazımdır. Yeni sovet quruluşunun üstünlükləri, insana bəxş etdiyi mənəvi azadlıq ümumi gözəllik fonunda vəsf edilir, həyatın, təbiətin, insanlığın yaxşı cəhətləri, işıqlı tərəfləri S.Vurğun lirikasının bədii obyektləri kimi götürülürdü.

Gözəlliyin dərkində, onun yüksək poetik bir dillə, qabaqcıl ideallar mövqeyindən qiymətləndirilməsində S.Vurğun istedadını cilalayan, ona istiqamət verən bir cəhət də vardır ki, bu da sosialist cəmiyyətinin sənətə münasibətindən irəli gəlir. S.Vurğunun qənaəti belədir ki, heç bir tarixi quruluşda sənətə, sənətkara, mədəniyyətə bu qədər geniş hüquq və azadlıq verilməyibdir. Bu baxımdan, onun Azərbaycan və dünya ədəbiyyatının klassiklərinə həsr etdiyi “Böyük ədib”, “Şairin ölümü”, “Sabirin şərəfinə”, “Şeirimizin ağsaqqalı”, “Böyük şairin şərəfinə”, “Sənət ustasına”, “Nizami” və başqa əsərləri diqqəti cəlb edir ki, bütün bunlarda dönə-dönə “Azad ilham” şeirində qoyulan ideyaya qayıdılır. Şair bu şeirində öz sələflə- rinin keçirdiyi ağır günləri xatırlayır və müasir dövrün sənətkarlar qarşısında açdığı geniş üfüqləri təsvir edir.

Onun estetikasına:

Pul verin! Çox verin! Mən sənətkaram,
Yoxsa siyasətlə pozular aram...”.

– deyən cızmaqaraçıların səfsətəsi kökündən yaddır. S.Vurğun sənətə bu cür yanaşmır, onun estetik qayəsi belədir:

Vuruldum o gün ki, şeirə, sənətə

Unutdum sevdiyim əyləncələri.
Aşiqəm insana və təbiətə
Əlim qələm tutub yazandan bəri.

Cəmiyyətdə, həyatda şairin müşahidə etdiyi, şeirə gətirdiyi hadisələr çox vaxt bu mövqedən qiymətləndirilir və gözəlliyin belə bədii dərki həqiqəti tapmağa, gerçəkliyin, insanlığın dərkinə kömək göstərmiş olur. Hər hansı həyat həqiqəti S.Vurğun poeziyasında bədii həqiqətə çevrilirkən, təbiətin, insanın gözəlliyi, onun ruha qida verən, dad verən rəngarəng, işıqlı tərəfi oxucunun qəlbinə axır.

Estetik kateqoriya cəhətdən gözəlliyin əks qütbü olan "eybəcərliyin" əksi S.Vurğun yaradıcılığında çox az yer tutur. Bu eybəcərlik yalnız assosiativ şəkildə, gözəlliyin zidd qütbü kimi təsəvvürə gəlir, çox vaxt isə gur işıqda qaranlıq əriyən kimi əriyib yox olur.

Eybəcərliyin ifşası S.Vurğunun bir silsilə yazdığı "satirik" şeirlərində özünü biruzə verir. Bu cür ifşa ruhu hələ "Səfil qadın", "Ölümün məhkəməsi", "Səriyyənin ölümü" və "Zərərçilər"in ümumi məzmunundan, "Fanar", "Raport" kimi şeirlərin bir sıra bənzətmələrində öz əksini qismən tapmış və "Tikanlı sözlər", "Şeir və xaltura", "Əhli-qələm" əsərlərində daha da qüvvətlənmişdi. "Çil toyuğun tək yumurtası", "İncə xanım", "Karyerist", "Xeyrə-şərə yaramaz", "Dargöz", "Xain" adlı şeirlər də bu səpkidəndir. Bütün bu əsərlərdə S.Vurğun burjua cəmiyyətindən miras qalmış eybəcərliyi ifşa edir, sosialist həyatı ilə bir araya sığmayan çirkin burjua əx- laqını qamçılayır.

Lakin S.Vurğun poeziyasında satirik motiv müvəqqəti bir hal idi və təcrübə təsiri baqışlayaraq tez keçdi. S.Vurğun ifşa üsulunu, eybəcərliyi qamçılama üsulunu, xəstəliyi müalicə üsulunu dəyişdi. O, poeziyasında işığı gücləndirdi, gözəlliyi cilvələndirdi, yaxşının hərarətində, gücündə, qüdrətində ey-

bəcərlik sısqalaşdı, ölgünləşdi...

Bu torpaq da bilir, bu göy də bilir –
Əzəldən aşiqəm mən gözəlliyə.
Saçlarım ağarır, gücüm əksilir
Günlərim boş yerə keçməsin deyə;
Açılsın qarşıma hər bağ, hər dərə;
Qələm çalmalıyam gözəlliklərə.

Poeziya tariximizdə eybəcərliyin ifşası, mənəvi çirkinliyin açıq qamçılanması və bu fonda gözəlliyin görünməsi M.Ə.Sabirdə necədirsə, S.Vurğun yaradıcılığında da gözəlliyin, işığın, yaxşılığın vəsfi və bununla da dolayısı yolla eybəcərliyin ifşası həmin əhəmiyyətə malikdir. Məhz bu nöqtədə M.Ə.Sabirlə S.Vurğun birləşir, çiyin-çiyinə eyni zirvədə addımlayır, xalqın qəlbində əbədiləşirlər. Bu cəhət poeziya tariximizdə hər iki şairin yaradıcılıq inqilabı idi. Eybəcərliyin ifşası yolu ilə gözəlliyi təsdiq etmək ideya-estetik qayəsi uğrunda M.Ə.Sabir əsrlərdən bəri əruzun qəliblənmiş çərçivələrini dağıtdığı, onun bu yolda hədsiz imkanlarını kəşf etdiyi kimi, S.Vurğun da milli heca vəzninin imkanlarını bu cür genişləndirdi və onu gözəlliyin vəsfi, təsdiqi yolu ilə eybəcərliyin ifşası ideya-estetik qayəsinə xidmətə çevirdi.

M.Ə.Sabirlə S.Vurğunu birləşdirən cəhət təkcə gerçəkliyə estetik münasibətdə və ya bədii formada etdikləri “inqilabi çevrilişdə” deyildi. Bu nəhəng söz dühalarını daha başqa, həm də mühüm bir cəhət də birləşdirirdi ki, bu da onların hər ikisinin yaradıcılığının canı, qanı, əsas mahiyyəti olan xalq ruhu, xalq mənəviyyatıdır. Onlar özlərini “dahi” sanıb xalqa, onun mənəvi dünyasına yuxarıdan aşağı baxanlar kimi heç vaxt özlərini “xalqın müəllimi” elan etmirdilər.

“Onun xüsusiyyətləri ilə bizim xalq dərindən-dərinə bağlıdır. Sabirin yaradıcılığında xalqımızın ruhu, həyatı vardır” – deyən, S.Vurğunun bu fikrilə onun özü haqqında deyilən “Azərbaycan və

S.Vurğun – eyni bir məfhumdur" ifadəsi arasında nə qədər də doğmalıq, yaxınlıq və uyarlıq vardır.

Onları cəsarət, sonsuz vətəndaşlıq məhəbbəti, vətənpərvərlik, vətənyanarlıq yolunda gözəlliyin dərki birləşdirirdi.

Gözəlliyin dərki mənasında "insana və təbiətə aşiqlik" S.Vurğun poeziyasının vətənpərvərlik, beynəlmiləlçilik, xəlqilik, humanizm, partiyalılıq kimi ən yaxşı keyfiyyətlərini yaratmağa kömək etmişdir.

Çünki bu keyfiyyətlərin özü kamillik səviyyəsində sovet adamının ən xarakterik cizgilərindəndir; insanın mənəvi gözəlliklərindəndir ki, bədii sənətdə öz əksini tapmış olur. Belə ki, "təbiətdə və canlı insanda kamillik yoxdursa, sənətdə və insanın əməllərində daha az kamillik olar"[1] tezisi S.Vurğunun sovet gerçəkliyinə estetik münasibətlərində özünü tamamilə doğruldur.

S.Vurğun poeziyasında insan konsepsiyasının meyarları, konturları azadlığın yaratdığı, zənginləşdirdiyi, insanlığa bəxş etdiyi yeni keyfiyyətlərlə birləşərək orjinal mahiyyət kəsb edir, insan varlığına belə bir müasir münasibət isə S.Vurğun poeziyasında monumental şəkildə yüksək kommunist ideallı insan obrazı yaradırdı.

S.Vurğun üçün insan zəkası hər şeyin yaradıcısıdır, onun yüksək kamalı hər hansı bir təbii qüvvəyə, ictimai qanunsuzluğa qələbə çalar. S.Vurğuna görə təbiət insan kimi digər elə bir qüvvə yaratmayıb ki, zamanın özü kimi konkret və sonsuz olsun.

Zaman üzərində qələbədən əldə edilmiş bu şərti mənəvi sonsuzluq S.Vurğun şeirində təqribən aşağıdakı estetik keyfiyyətlərdən bərqərar olur:

Çalış, qəlbin saf olsun ki, təmizlikdir sənin hüsnun,
Butün ömründə zəhmətsiz, hünərsiz keçməsin bir gün...

---

[1] N.Q.Çernışevski. Sənətin varlığa estetik münasibətləri. Bakı: Azərnəşr, 1956, səh. 82.

Gözəl sözlər gözəldirsə, azadlıq min hünər istər.
Əməl uğrunda candan keç, özün mərdanəlik göstər...
Vuruş öz haqqın uğrunda, hünər bir ehtiyac olsun.
Köçüb getsən də dünyadan, adın başlarda tac olsun.

Bu cür mənəvi məziyyətlər təkcə bir zaman üçün yox, bütün zamanlar üçün insanın daxili dünyasının bəzəyi, onun mübariz ruhunun ziynətidir. Bu, əsl kommunist keyfiyyətidir, kommunist əqidəsidir, müasir insanın idealıdır.

Onun insanı – lirik qəhrəmanı həmişə xeyrin, işığın, günəşin tərəfindədir. Bahar həyatın simvolu kimi S.Vurğun şeirində həmişə ölümə, qana, cəhalətə – Qışa qarşı mübarizə aparır. Həyatın bu dialektik ziddiyəti – həyat və ölüm dilemması ünsür şəkildə Səməd Vurğun yaradıcılığının əvvəllərindən başlayaraq 1930-cu ilin ortalarında artıq üslub şəklini alır. Şair 1937-ci ildə Bahar mövzusunda bir silsilə şeir yazmağa başlayır. Burada insanın təmiz hissləri, təbiətin, gözəlliyin dərki ön plana çəkilir. İnsanlığın sonsuz sevinc, səadət duyğuları tərənnüm edilir. "Bahar və mən", "Bülbül", "Bənövşə", "Səhər-səhər", "Yazla qışın deyişməsi", "Hürmüz və Əhrimən" şeirləri bu motivə xarakterik misaldır. Şeirlərdə həyatın fəlsəfəsi, onun hərəkət səbəbi, xeyirlə şərin dialektik ziddiyyəti, Baharın təntənəsi öz əksini tapır. Bu şeirlərdəki bahar tə- bii hadisə, təbiətin ən gözəl fəsillərindən biri kimi deyil, həyatın, yaşayışın, insanlığın simvolu kimi, bədii obrazı kimi estetik mahiyyət kəsb edir.

"Yazla qışın deyişməsi" şeirində "günəşin eşqinə dastan qoşan", "həyatın gözəlliyinə vurğun olan" şair romantik bir üslubda yazla qışı belə səciyyələndirir:

Adım yazdır, yazılmamış taleyimə nə dərd, nə qəm...
Səhərlərin ney səsiyəm;
Könlümdədir sadəfli saz,

Soran olsa: – Nədir bu yaz?
Deyin: – Sovet ölkəsiyəm.

Qış nə deyir? – Mən faşistəm, yaranmışdır üzüm qara,

Zülm edirəm insanlara;
Qan içirəm, həzz alıram,
Bu dünyanı mən salıram
Boranlara, tufanlara.

Həyatın bu iki dialektik ziddiyyəti, mübarizəsi S.Vurğun lirikasının konfliktini təşkil edir, onun lirik qəhrəmanı isə Hürmüz kimi, əfsanəvi nağıllarımızın müsbət qəhrəmanları kimi xeyrin, həyatın, günəşin tərəfində durur, azadlığın, səadətin rəmzinə çevrilir. Bu lirik qəhrəman ən ideal humanistdir, geniş ürəkli, fədakar vətənpərvərdir. O, Hürmüz sayağı qəhrəmandır, lakin müasir insandır, kommunistdir. O, bütün həyatı boyu aşağıdakı ideallar uğrunda mübarizə aparıb, ancaq bunları arzulayıb:

Bu xeyir iş, bu məhəbbət yaşasın,
Yaşasın mehr ilə ülfət yaşasın.
Yaşasın ulduzu sönməz gecələr,
Yaşasın daima sevdalı səhər.
Yaşasın buğda biçən əllərimiz,
Suyu bol, torpağı bol ellərimiz
Yaşasın sünbülü dolğun zəmilər,
Qalmasın yerdə səfalətdən əsər.

Göründüyü kimi, lirik qəhrəmanın arzuları bəşəriyyətin ideal istəyi ilə eyniləşir. O, məhəbbət, mehri-ülfət, sülh və əmin-amanlığın tərəfindədir, onların carçısıdır. Ona görə də heyranedicidir, ülvidir, təmizdir, bəşəridir. Bunlar insanlığın ümumi arzuları, ideallarıdır.

S.Vurğun lirik qəhrəmanının, onun poeziyasının humanist, beynəlmiləlçi, vətənpərvər, partiyalı mövqeyinin mənası da burada açılır, bütün parlaqlığı ilə özünü göstərə bilir. S.Vurğunun lirik qəhrəmanı buna görə də,

Vətən sevgisi xoşdurmu? –

sualına, böyük bir inamla cavab verir:

O şərbət kimidir,
Vətən andı, vətən eşqi əbədiyyət kimidir...

S.Vurğunun lirik qəhrəmanı mənəvi cəhətcə vətənə, xalqa bağlıdır, öz xalqının, vətəninin oğludur. O, əsl vətənsevərdir. A.Y.Adalis S.Vurğunu nəzərdə tutaraq yazır ki, "o, öz şeirlərinə çox oxşayırdı". Bu mənada S.Vurğun şəxsiyyəti onun poeziyasının lirik qəhrəmanı ilə eyniləşir, vətənpərvərlikdə ideal səviyyədə dururdular. Nairi Zaryan yazırdı ki, "...Azərbaycan xoşbəxtdir ki, onun Vurğun kimi bir şairi vardır". Bu sözlərin, qənaətlərin hamısı S.Vurğun yaradıcılığının xəlqiliyindən, vətənpərvərliyindən doğur, ondan irəli gəlirdi.

Xəlqilik və vətənpərvərlik çoxlarının yaradıcılığında büllur təki bərraq, dup-duru bir bulağı andırır. Xəlqiliyin, vətənpərvərliyin yaradıcılıqda coşqun bir nəhrə çevrilməsi üçün gərək şair Vətənə, xalqa öz ürəyini bütünlükdə bəxş etmiş olsun, onun dərdinə, sevincinə bütün səmimiliyilə şərik olsun, xalqla birgə yaşasın, yansın. Hələ yüz il bundan əvvəl V.Q.Belinski tərəfindən deyilmiş bu sözlər indi də öz təravətini itirməmişdir. "Bizim zəmanəmizdə xəlqilik ədəbiyyatın birinci məziyyəti və şairin ən yüksək xidməti halını almışdır. İndi bir şairi "xəlqi" (xalq ruhunda yazan) adlandırmaq, – onu ən yüksək dərəcəyə qaldırmaq

deməkdir... Xəlqilik bir növ dahilikdir...”[1].

Müasir sənətkarlarımızın bir qismi xalqın istək və arzularını, Vətənin gözəlliklərini və bəkarətini yüksək ideyalar mövqeyindən tərənnüm etdiklərindən artıq, V.Q.Belinski söylədiyi zirvədə bərqərardırlar. Lakin bayaqkı təşbeh misalında: bulaq və nəhr nisbətindədirlər. S.Vurğunun poeziyasında vətənpərvərlik və xəlqilik həmin “nəhr” timsalındadır. Sözün həqiqi mənasında S.Vurğun xəlqiliyi, Vurğun vətənpərvərliyi kimi xəlqilik, vətənpərvərlik “bir növ dahilikdir”.

Vətənə, xalqa yüksək, müqəddəs, ülvi bədii-estetik səviyyədən nəzər salmaq, həyatı bu səviyyədən duymağa çalışmaq S.Vurğun poeziyasında sosialist lirikasının ən qabaqcıl bəddi-estetik prinsiplərinin tam təşəkkülünə şərait yaratdı və onu sosialist realizm metodlu ədəbiyyatın qüdrətli sənətkarları sırasına çıxartdı. A.Fadeyev yazırdı: “Əziz dostum Səməd. Sənin vüsətli poeziyan sovet xalqının yaratdığı ən gözəl poeziyanın kəhkəşanında parlaq ulduz kimi şəfəq saçır”. S.Vurğun hadisələri inqilabi inkişafda alaraq bədii gerçəklik yaratmaq, marksist-leninçi dünyagörüşünə yiyələnərək həyata kommunist partiyalılığı mövqeyindən baxmaq və belə bir mövqedən izah etmək sayəsində bu “kəhkəşanda” parlaq yer tutmuşdur. Şairin poetik aləminin sonrakı “orbitlərində” görəcəyik ki, onun lirikasının ideya-estetik prinsipləri daha da genişlənir, bəşəri ideallara qovuşaraq ümumbəşəri mahiyyət kəsb edir.

S.Vurğun sosialist gerçəkliyini müşahidə edərkən, ictimai gözəlliyin bədii tədqiqi zamanı ən müxtəlif və aktual mövzulara müraciət etmiş, yeni insanın bütün mənəvi keyfiyyətlərini əhatə edə bilən incə mətləblərə toxunmuşdur.

“Səməd diqqətli müşahidəçi, müşahidə etdiklərinin istedadlı

[1] V.Q.Belinski. Seçilmiş məqalələr. s. 91-97

ifadəçisi idi”[1]. S.Vurğunun nəbzi zamanın nəbzi ilə həmişə birgə döyünmüş, onun mövzu amplitudası ən müxtəlif kordinatlardan keçmiş, sovet varlığının ən mühüm məsələləri onun poetik obyektinə çevrilmişdir.

1935-1941-ci illər S.Vurğun poeziyasında, onun yaradıcılığında yeni səhifələr açıldı, şair istedadının yeni tərəfləri özünü göstərdi. O, həm incə rübablı lirikanın, həm epik poemaların, “Şekspir ehtiraslı dramların” müəllifi kimi, həm də mahir tərcüməçi kimi tanındı. S.Vurğun 1936-cı ildə böyük rus şairi A.S.Puşkinin məşhur “Yevgeni Onegin” mənzum romanını, M.Qorkinin “Qız və ölüm” poemasını, Ş.Rustavelinin “Pələng dərisi geymiş pəhləvan” poemasının bir hissəsini dilimizə çevirmiş, tərcüməçilik işində böyük məharət göstərdiyinə görə “Puşkin medalı” və Gürcüstan MİK-nin Fəxri fərmanı ilə təltif edilmişdir.

1937-ci ilin ikinci yarısında S.Vurğun ilk dəfə dram janrına müraciət edir və Azərbaycan dramaturgiyası tarixində mühüm hadisəyə çevrilən “Vaqif” mənzum pyesini yazır. “Vaqif” dramasının ilk tamaşası 1938-ci il oktyabrın 5-də M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrında olmuş və sənət aləmində fövqəladə bir hadisə kimi qarşılanmış, böyük dramaturji və poetik məziyyətinə, şeiriyyətinə, dərin xəlqilik və humanizminə görə az vaxt içərisində dillər əzbərinə çevrilmişdir.

Bakı proletariatının inqilabi qəhrəmanlıq tarixindən bəhs edən və ikinci dram əsəri olan “Xanlar” pyesini 1939-cu ildə yazır. Bu əsər üçün dramaturq “Şərəf nişanı” ordeni ilə təltif olunur. Şairin “Azad ilham” şeirlər kitabı həmin il çapdan çıxır. O, 1940-cı ildə N.Gəncəvinin “Leyli və Məcnun” poemasını farscadan tərcümə edir, əsər tam şəkildə 1942-ci ildə çapdan çıxır. 1941-ci ildə isə “Vaqif” dramına görə Dövlət mükafatı alır. Bu

---

[1] Yemilyan Bukov. Səməd Vurğunla görüşlərim. “Azərbaycan gəncləri”. 23 mart 1966-cı il.

dövrdə “Fərhad və Şirin” tarixi-romantik pyesini yazır və bu yeni əsərinə görə 1942-ci ildə ikinci dəfə Dövlət mükafatına layiq görülür. “Səadət uğrunda” adlı şeirlər məcmuəsi də həmin il çap olunur.

S Vurğun ədəbiyyatın və xalqın ən ağır, məsuliyyətli bir vaxtında – 1941-ci ildən Azərbaycan Sovet Yazıçıları İttifaqı İdarə Heyətinin sədri seçilmiş, 1948-ci ilin sonuna qədər həmin vəzifədə çalışmışdır.

Çox ötəri şəkildə sadaladığımız yaradıcılıq xronologiyasından göründüyü kimi, S.Vurğun olduqca səmərəli və məhsuldar işləmiş, ən yaxşı əsərlərinin bir hissəsini bu dövrdə yazmışdır.

Bu dövr S.Vurğun poeziyasında mövzu zənginliyi, janr müxtəlifliyi, forma orjinallığı, onun poetik sənətkarlığının kamilliyi diqqəti, xüsusilə cəlb edir. M.Qorkinin şair haqqında dediyi sözlər nə qədər də S.Vurğun sənətinə, şəxsiyyətinə uyğundur... “Şair – əks-sədadır, o, həyatın hər bir səsinə, çağrışına cavab verməyə borcludur”[1]. Bu mənada S.Vurğun həyatın, gerçəkliyin əks-sədasına çevrilmiş, qüdrətli dağlar kimi sovet həqiqətinin ən incə səsinə belə poetik dillə cavab verməyi bacarmışdır.

S.Vurğun yaradıcılığı şeirin, poeziyanın bütün məzmun və forma gözəlliyini özündə cəmləmişdir. Başqa sözlə, S.Vurğun yaradıcılığı poeziyanın ən əsas növlərinin – lirik, epik və dramatik növlərin vəhdətindən ibarətdir ki, bu vəhdətin özü zəngin çalarlı müxtəliflik yaratmışdır.

S.Vurğun ən yaxşı lirik, epik, epik-lirik, lirik-epik poemaların nümunələrini yaratmış, onlara yeni məzmun, yeni ifadə imkanları əlavə etmişdir. Bu sahədə də o, klassik Şərq epik standartlarına uyğunlaşmamış, onun ölçülərini genişləndirmişdir ki, bunu “Komsomol” poeması, “Ölüm kürsüsü”, “26-lar”, “Talıstan”, “Aslan qayası”, “Bəsti”, “Ayın əfsanəsi”, “Hürmüz və

[1] М.Горкий. Собрание сочинений в 30-ти том. Гослитиздат. М., 1949-1955, том. 29, стр. 335.

Əhrimən", "Bakının dastanı", "Zəncinin arzuları", "Muğan", "Aygün", "Zamanın bayraqdarı" kimi həm məzmunca, mövzuca, həm də formaca ən müxtəlif olan əsərləri sübut edir. S.Vurğunun epik və ya lirik əsərləri üslubca nə qədər yaxın səsləşsə də, formaca, bədii imkanlarca, süjetin quruluşuna, kompozisiya xəttinə görə biri digərinə bənzəmir. S.Vurğun poetik formanın ən yaxşı nümunələrindən istifadə etmiş, şeirin məna gözəlliyinə, ifadəliliyinə, bədiiliyinə nail olmaq üçün yaradıcılıq əzablarına qatlaşmış, əsərlərinə müxtəlif ornamentli poetik naxışlar vura bilmişdir. Bu şairin Böyük Vətən müharibəsi illərindəki yaradıcılığında daha bariz şəkildə nəzərə çarpır.

Böyük Vətən müharibəsi dövrü S.Vurğunun yaradıcılığında siyasi-ictimai və fəlsəfi məzmunlu lirikanı qüvvətləndirdi, onun şairlik istedadının yeni xüsusiyyətlərini, üslubi keyfiyyətlərini meydana çıxartdı.

Vətəni müdafiə mövzusu S.Vurğunun hələ 30-cu illərin əvvəllərində əzəmi əhəmiyyət verdiyi mövzulardan idi. Xalqı ayıq və sayıqlığa, mübarizəyə çağıran bu şeirlərində şair yüksək ideyalılıq göstərir, Sosialist Vətənimizin çiçəklənməsinə mane ola biləcək qüvvələrə qarşı olmazın nifrət hissi yaradırdı. 1930-1938-ci illərdə "Mən də bir əsgər kimi", "Vətən ordusu", "Qızıl əsgər" kimi şeirlərində S.Vurğun Vətən qarşısında sanki and içir, onun müdafiə meydanında döyüşən bir əsgər olacağını dönə-dönə xatırladırdı.

Hələ müharibə başlamazdan çox-çox əvvəl belə bir inam və əqidə ilə formalaşan lirik qəhrəman, sosialist vətənimizin ağır günlərində bu örtülü xüsusiyyətini daha qabarıq surətdə ortaya çıxardı. qüdrətli bir lava kimi "Vətən keşiyində" şeirilə asimana bülənd oldu.

Bilsin ana torpaq, eşitsin Vətən
Müsəlləh əsgərəm mən də bu gündən! –

nidası ilə meydana atılan lirik qəhrəmanın psixoloji aləmində yeni-yeni səhifələr açılır, onun yeni vətənpərvər, fədakar məziyyətləri bütün sovet insanlarının ümumiləşdirilmiş təzə mənəvi keyfiyyəti kimi özünü göstərir. Müharibənin ən ağır, çətin zamanlarında yazılmış "Bütün xalqlar, qəbilələr od içindən çıxacaqdır", "Nəsibimiz səadətlə ilk bahardır", "Gələcəyin toy-bayramı", "İstiqbal təranəsi" şeirlərindəki lirik obraza, bütöv xarakterə qələbə əzmi ilə dolu belə bir əqidə hakimdir ki, onda nəinki Vətəni, hətta bütün Avropa xalqlarını, həmçinin, dünyanı bu faşizm taunundan xilas etmək qüdrəti vardır.

S.Vurğun qələbənin imkanlarını da nəzərdən qaçırmır, bu böyük günün yalnız bütün sovet xalqlarının birgə səyi, monolit birliyi nəticəsində yaranacağını həmişə ön plana çəkirdi. "Məhəbbət", "Moskva", "Ukrayna partizanları", "Salam Moskva" və bir çox başqa şeirlərində Sovet xalqlarının sarsılmaz birliyini, qardaşlıq və dostluğun yaratdığı qadir qüvvəni faşizmə qarşı qoyur, yüksək bir vüsət və tükənməz inamla tərənnüm edirdi.

Lakin, bu birlik və qardaşlıq axınında onun öz millətinin, öz xalqının coşğun çayı – Kürü də vardır. Şair Azərbaycan xalqının əsrlərdən keçib gələn dözüm və mübarizə ruhunu qorxmazlıq və yenilməzlik mücəssəməsi olan igidlərin göstərdikləri şücaət və qəhrəmanlıqların dastanını yazır, kommu- nist milli iftixarı ilə azərbaycanlı balaların şücaətini vəsf edirdi. "İgid şahin", "Bayraqdar", "Partizan Babaş", "Azərbaycan balası" şeirlərində həm tarixi qəhrəmanlıq göstərən, həm də bu gün fövqəladə mərdliklə döyüşən vətən oğullarının real həqiqi obrazları əbədiləşdirilmişdir. Bu şeirlərin ən yüksək bədii məziyyətlərindən biri bu idi ki, onların müraciət obyekti real, tarixi şəxsiyyətlər, şairin özünün şəxsən tanıdığı və ya görüşdüyü cəbhə qəhrəmanları idilər. Bu qəhrəmanlar xalqa məxsus olan, qərinələrin sınağından çıxan, vətənpərvərlik, insanpərvərlik, beynəlmiləlçilik və qəhrəmanlıq ənənələrinin yeni təzahürçüsü kimi təsvir olunur, şair

onların şərəfinə şahin nəğməsi oxuyurdu.

Bu qəhrəman vətən oğulları öz fədakarlıqları ilə zamanın qızıl səhifələrini, dövrün yeni tarixini yazırdılar:

Can qardaşım, sən mənimsən, sən mənim partizanımsan,
Yeni günlər yaradanım, yeni tarix yazanımsan.
Qoy ulduzlar dəstə-dəstə öpsün sənin mərd əlini,
Günəş yazsın üfüqlərə hər eşqini, əməlini.

S.Vurğunun bu dövr şeirlərinin lirik qəhrəmanı bütün varlığı ilə günün tələbinə uyğun idi. Bu cəhət şeirlərə, bəzən publisistik ruh aşılasa da, emosionallığı, ekspressivliyi zəiflətsə də onu obyektivliyə, həyat gerçəkliyinə həddindən artıq yaxınlaşdırırdı. Bu cür şeirlərin mövzusu əksər hallarda qəzet xronikalarından, radio məlumatlarından, əsgərlərlə görüşlərdən, arxa cəbhə zəhmətkeşlərinin əmək xariqələrindən götürülür və elə həmin anda da şeirə çevrilirdi. “Sovqat”, “Qoça qəhrəmanın çıxışı”, “Qızxanımın hünəri”, “İgid şahin”, “Partizan Babaş” kimi şeirlər məhz belə yaranmışdır.

Sosialist həyatını dərindən sevən, onun inkişafı və əmin-amanlığı üçün böyük yaradıcılıq fədakarlığı göstərən S.Vurğunun müharibə dövründə yazdığı şeirləri mövzularına görə şərti olaraq dörd yerə bölmək olar:

1) Cəbhə qəhrəmanlarının, döyüşçülərin göstərdikləri igidliyin vəsfi və döyüşə çağırış; 2) Arxa cəbhədə əmək igidliyi göstərən sovet adamlarının tükənməz zəhmətinin vəsfi; 3) Faşistlərin törətdikləri vəhşiliklərə, körpələrin, anaların fəryadına, yanan şəhərlərin dəhşətli görkəmlərinə həsr olunmuş şeirlər; 4) Vahid xalq monolitliyini yaradan partiyanın tərənnümü.

Bu bölgü profilindən S.Vurğunun müharibə dövründə yaratdığı lirikaya nəzər saldıqda ən əvvəl “İgid Şahin”, “Partizan Babaş”, “Azərbaycan balası”, “Ukrayna partizanları”, “Bay-

raqdar", "Ananın öyüdü", "Qızxanımın hünəri", "Yanğın", "Mənə belə deyirlər ki", "Göyərçin" kimi şeirlər nəzərimizdə canlanır.

Bu şeirlərin ən böyük məziyyəti gerçəkliyə düzgün münasibətdir. Yəni, təsvir obyektinə real münasibət, əyanilik və bu əyaniliyin özünə yüksək hissi münasibətdir. Başqa sözlə, hadisənin təsvir üsulu ilə həddindən artıq hissi-emosianal çalarla, lirik bir vüsətlə oxucuya təqdim olunmasıdır. Bu şeirlərdə seçilən mövzu, mövzuya uyğun olan məzmunun özü lirikdir. Belə bir lirik məzmun isə yüksək ilhamın kürəsində daha da hərarətlənir, incələşir, musiqiləşir.

"Göyərçin" bu qəbildən olan şeirlərə ən yaxşı nümunədir. Şair gördüyü hadisədən təsirlənmiş, cəbhədə şahidi olduğu həyati detalları şeirləşdirmişdir. "Göyərçin" müharibənin, faşizmin törətdiyi dəhşəti təsvir edən lirik bir lövhə təsiri bağışlayır. Hadisə təhkiyə üsulu ilə təsvir olunsa da, təqdim olunan lövhənin özü lirikdir.

Şeir süjetli lirikanın ən kamil növüdür. Gerçəkliyə hissi münasibətdən və təsvir üsulundan yaranan bitkin kompozisiya quruluşu üzrə hadisə davam edir.

"Göyərçin" şeiri süjetinin qısalığına baxmayaraq kompozisiyasının aydınlığına görə və zəngin assosiasiyasına görə kiçik, minatür bir lirik poemanı da xatırladır. Lirik xarakter əvvəl duşdüyü vəziyyətlə oxucunu tanış edir, "Kənd biçimli bir şəhərin" lövhəsini çəkir.

Qəddarlığın əli ilə "ömrün, həyatın xəyala" çevrildiyi yerdə dayanan lirik xarakter muşahidə obyektivini daha xarakterik lövhəyə yaxınlaşdırır, ölümün, fəlakətin, faşizmin cinayətini burada bütün canlıları təmsil edən göyərçinin vəziyyəti ilə çatdırır; göyərçinlə həsbi-halda lirik xarakter əvvəlki xoşbəxt həyatı, vəziyyəti xəyali şəkildə gözü önündə canlandıraraq söyləyir:

Aç sirrini, de, göyərçin,

Nisgillisən söylə neçin?
Nə baxırsan yana-yana
Külə dönmüş o eyvana?
Söylə hanı səhər-səhər
Bu eyvana ayaq basan,
Təbiətə qulaq asan
O xoş üzlü, gözəl dilbər?

Artıq, şeirin bu hissəsindən başlayaraq obyektiv təsvirlə xəyali təsvir paralelliyi yaranır. Yəni, bu hissəyə qədər müəllif gördüyü real hadisəni, mənzərəni təsvir edirdisə, indi bu hadisənin təkanı ilə yaranan və xəyalın gücü ilə uydurulan, lakin mümkün olan hadisəni nəql edir. Belə bir kontrast hadisəni daha da qabarıqlaşdırır, onu daha da emosional edir:

Onun şair qəlbi varmış,
O sevərmiş təbiəti.
Günəş belə salamlarmış
O qızdakı şeiriyyəti.

"Göyərçin" şeirini emosional yüksəkliyə qaldıran cəhətlərdən birisi də onun romantik naxışlarla bəzədilməsidir. Şeirin yaranmasına səbəb olan assosiativ ünsürlərdən Göyərçin əhvalatı, məsumluq və xeyirxahlıq simvolu göyərçinlə həsb-hal etmək kimi bədii üsuldan istifadə, Şərq aləmində, "Məlikməmməd", "Xeyir və Şər" nağıllar dünyasında böyüyən S.Vurğun kimi şairə xas olardı... Göyərçinin belə görkəmi başqa xalqa, millətə mənsub şairə, məsələn müharibə motivlərinin ən yaxşı tərənnümçüsü Al. Tvardovskiyə təsir etməzdi, daha doğrusu, o belə bir bədii üsuldan – göyərçinlə həsbi-hal etmək üsulundan istifadədə çətinlik çəkərdi, yaxud da təsəvvürünə belə gətirməzdi.

"Göyərçin"də olan motivin qnesioloji xətti ənənədən –

nağıllar dünyasından su içsə də, problematik cəhətdən mühüm və aktualdır. Şeir S.Vurğun lirikasına xas olan nikbin bir sonluqla bitir. Vəhşilik, rəzalət, hökmranlıq heç vaxt daimi olmamışdır, "Vaxtsız ölmüş məhəbbətlər", "bu zillətlər, möhnət- lər" vaxt gələcək ki, cavab "istəyəcək", "torpaq altdan baş qaldıraraq qisas deyə hayqıracaq".

Qalmayacaq nə intizar,
Nə bir məhbəs, nə bir zindan.
Əynindən yas paltarını
Soyunacaq qara torpaq.
O qurtuluş baharını
Kommunistlər yaradacaq.

Budur, real həyat hadisəsindən çıxan bədii məntiqi-fəlsəfi nəticə! Bu bədii-məntiqi nəticə riyazi formula kimi mücərrəd şəkildə təfəkkürdə yaransa da həlli, cavabı qəti və real idi.

1945-ci ilin 9 mayında – baharın gözəl çağında faşizm fəlakətinə Sovet Ordusu tərəfindən son qoyulması şairin uzaq- görənliyini, qələbəyə inamını sübut edir. Burada bir cəhəti də qeyd etməliyik ki, S.Vurğunun lirik şeirlərinin əksəriyyətində irəli sürülən ideyaların hamısı yerinə yetmiş, ictimai həyatda özünü doğrultmuşdur. Bu cəhət, Vurğun ideya- larının yüksək dərəcədə ictimailiyini və bəşəriliyini obyektiv əsasda olmasını, müasirliyini əks etdirir. Şair özü bu tələbi ədəbiyyatımız qarşısında qoyaraq yazırdı: "Bizim yazacağımız əsərlərin verdiyi hökmlər tarixin hökmləri kimi mütləq olmalıdır".

S.Vurğun müharibənin ilk günündən başlayaraq tükənməz bir cəsarət və sürətlə ədəbiyyatımıza başçılıq edir, ən aktual, vacib mövzularda yüksək sənət nümunələri yaradır, poeziyanın döyüşkənlik ruhunu artıraraq onu günün əsgərinə çevirirdi.

O zaman üçün vətənimizin, xalqımızın həyatında elə bir

mühum hadisə, vəzifə, məqsəd tapmaq olmazdı ki, poeziyamızda, xüsusən S.Vurğun lirikasında öz əksini tapmasın. S.Vurğun şeiri bu dövrdə nəinki mövzuların istiqamətverici aktuallığı ilə, həm də təzə obrazları, formaları ilə də ədəbiyyatımıza yenilik gətirdi; şeirimizin kompasını vacib cəhətlə- rə yönəltdi. S.Vurğunun bu illər poeziyasında, xüsusən müharibənin ilk illərində bir ağsaqqal harayı səslənməkdədir ki, bu da ümumən ədəbiyyatımızın həmin dövrü üçün olduqca xarakterikdir[1].

Uçun, qızıl şahinlərim! Siz uçduqca hey ucalın,
Quzğunların qanadını bir vuruşda yerə salın.
Uçun, qızıl şahinlərim! Göylər olsun məskəniniz,
Arxanızca göz dikmişdnr sizin böyük Vətəniniz.

– misraları buna bir daha sübutdur.

S.Vurğun poeziyasında bu illər başqa bir keyfiyyətin də inkişafı, onun yeni mahiyyət kəsb etməsi diqqətəşayandır ki, bu da onun şeir aləmində 30-cu illərdən baş alıb gələn yüksək nikbinlik ruhudur. Xalqımızın, böyük sovetlər vətənimizin ən ağır anında, sosializmin başının üstünü təhlükə aldığı bir vaxtda, müharibə kabusunun yaratdığı kədərin, qəmin ellərin qəlbində yuva saldığı bir zamanda S.Vurğun şeirinin nikbin ruhu zəifləmir, titrəmir, əksinə onun həyat eşqi, haqqa-ədalətə, sosializm xalqları monolitliyinə, dövlətlə xalqın birliyinə inamı daha da qüvvətlənir, qələbəyə inamı daha da artırır, böyük lirik həyəcanla, epik vüsətlə bu inamı tərənnüm edir.

Üfüqlər qızarıb, güləndə səhər,
Bülbül öpə-öpə oyatsın gülü.
Çirməyib qolunu qızlar, gəlinlər.
Yığsın qucağına sarı sünbülü.

[1] Bəkir Nəbiyev. Süngüyə çevrilmiş qələm. Bakı: Azərnəşr, 1970, s. 56

Torpağa düşməsin havayı bir dən,
Çörək bol olarsa basılmaz vətən.

“Tarla nəğməsi” şeirindən olan bu parça elə bil heç 30 iyun 1941-ci ildə – dəhşətli müharibənin səkkizinci günü yazılmayıbdır. Nikbinlik, fövqəladə ruh yüksəkliyi, müdrik təmkinlilik əsas məqsədi diqqət mərkəzində saxlayır, təlaşa, çaxnaşmaya yol vermədən arxa cəbhənin vəzifəsini qəti müəyyənləşdirir.

S.Vurğunun özü bu məsələni belə izah edirdi: “Bəzən deyirlər – nə üçün biz müharibənin kədər və qəmini vermirik... Lakin mən iddia edirəm ki, bütün xalqımızın ürəyində olan qəm, qüssə hisslərinə baxmayaraq, bu saat bizim xalqımız üçün qalibiyyət eşqi, düşməndən intiqam almaq hissi, zəhmət və fədakarlıq hissləri daha xarakterdir”.

S.Vurğunun müharibə dövrü yaradıcılığı demək olar ki, bütövlükdə bu böyük hisslərin tərənnümündən ibarətdir və “Zəfər bayramı” şeiri bu hisslərin zəfər akkordu kimi səslənsə də müharibədən sonrakı dövrdə də əsas motiv kimi qaldı. Ölümə, zülmətə, rəzalətə və əsarətə qarşı müharibənin qalibiyyətlə bitməsi S.Vurğunun nikbin və təmkin dolu şeirinin zəfər təntənəsi idi:

Qoy çalıb oynasın Vətən torpağı,
Göylər səcdə qılsın bu ülviyyətə.
Ölümün, zülmətin qara bayrağı
Bu gün təslim oldu bizim qüdrətə.
Yazılsın tarixə bir qızıl xətlə
45-ci ilin doqquz may günü.
Başlasın şeirlə, sazla, söhbətlə
Bu ellər bayramı, ellər düyünü.

Təkcə müharibə dövrü yaradıcılığının ən xarakterik cəhətləri haqqında müşahidədən görürük ki, “Səməd Vurğunun qəhrəmanı – əbədi bir bəşəriyyət baharı uğrunda çarpışan, azad vətən, gözəl

həyat uğrunda fədakarlıq göstərən qəhrəman insanlardır”[1].

Beləliklə. S.Vurğunun sözləri ilə desək: “Müharibə zamanı ədəbiyyatımızda üçüncü bir dövr başlamışdır. Bu dövr yaşadığımız zamanın böyük fəlsəfi ümumiləşdirmələrini vermək dövrüdür”.

Bu dövr S.Vurğun yaradıcılığında, onun poetik aləmində daha dərin ümumbəşəri ideallar uğrunda mübarizə dövrüdür. Şair bu böyük məqsədi bütün aydınlığı ilə dərk etmiş və üzünü bütün ədəbiyyatımıza tutaraq demişdir: “Bizim qəhrəmanlar yer kürəsində insan zəkasının, yaradıcı əməyin, vicdan azadlığının təntənə çalacağı, yalan, riya, məkr, zorakılıq və qan hərisliyi yox olacağı o aydın səhər naminə canlarından keçmişlər. Biz bu aydın səhər uğrunda mübarizə etmişik və mübarizə edəcəyik. Madam ki, belədir, gəlin, müharibədən sonrakı dövrdə yaradacağımız ən böyük əsərimizə “Bəşəriyyətin səhəri” adını verək.

[1] Məmməd Arif. Vətənpərvər şair. “Səadət uğrunda” şeirlər kitabına müqəddimə. Bakı: Azərnəşr, 1942, s. 6.

## LİRİK QƏHRƏMAN VƏ BƏŞƏRİ İDEAL

Sülh, azadlıq, səadət uğrunda aparılan mübarizə, ölüm-dirim müharibəsi, ölümlə həyatın "olum, ya ölüm" şüarı həyatın xeyrinə qələbə çaldı, azadlıq bütün təntənəsi ilə özünü dünya xalqlarının gözü önündə cilvələndirdi. Sosializmin nailiyyətlərini qoruyan Sovet İttifaqı müharibədə ən qabaqcıl, ən mütərəqqi ideyaları, bəşəriyyətin səadətini faşizmdən xilas etdi, "bəşəriyyətin səhərini" qorudu.

Tarixdə yeni dövr – bütün dünyada sosializm sisteminin üstünlüyü və qələbə dövrü başlandı. Bu yeni dövrdə ədəbiyyatın vəzifəsi sosializm cəbhəsinə qarşı sülhə, azadlığa və demokratiyaya qarşı çıxış edən irtica və imperialist qüvvələri əleyhinə kəskin mübarizə aparmaqdan ibarət idi. Sülhün qədir-qiyməti, müqəddəsliyi daha aydınlığı ilə duyulmaqda idi. Bəşəri ideyalar, dünya xalqlarını düşündürən, onların mənəvi ehtiyacını ödəyən məqsədlər qabaqcıl poeziyanın ən başlıça problematikasına çevrildi. Hadisələrin bəşəri mənası poeziyanı daha çox düşündürməyə başladı.

Belə düşüncə tərzi S.Vurğun poeziyasının lirik qəhrəmanına da hakim kəsilmiş, o, bütün bədii mübarizə istiqamətini bu əsasda müəyyənləşdirmişdir. Lirik qəhrəman daha özünü, öz ətrafını yox, bundan daha geniş mənəvi dünyanın xəritəsi üzərində fikirləşməli olur. O, özünü dərk etmiş, ***Məhəbbətin, Sədaqətin, Həqiqətin, Kamalın*** fəlsəfi-ictimai mahiyyətini, mənasını bədii təxəyyülündə cəmləşdirmişdir.

İndi lirik qəhrəman malik olduğu, "bir təndə cəmləşdirdiyi" bu yüksək, ideal mənəvi keyfiyyətləri özündən kənara çıxarmağa cəhd edir, onu həyatın özünə qaytarmaq uğrunda mübarizə aparır. S.Vurğun poeziyasının həyati, fəlsəfi, ictimai-siyasi mənasının yeni qüdrəti də burada açılır.

Yüksək ideal uğrunda, bəşəri arzular naminə mübarizə

motivi S.Vurğun yaradıcılığında yeni bir dövrün başlanğıcını qoyur ki, bu, fəlsəfi ümumiləşdirmələr yolu ilə gerçəkliyin geniş, romantik dərki dövrüdür. Bu cür ümumiləşdirmələrə keçid mərhələsi “Həyat fəlsəfəsi”, “Ürək”, “Dörd söz”, “Gələcəyin toy-bayramı” səpgidə şeirlərdə etik, əxlaqi və fəlsəfi cəhətdən öz əksini tapır, lirik qəhrəmanın zəngin mənəvi aləminin sonrakı inkişaf mərhələsi kimi ortaya çıxır.

Lirik qəhrəman böyük sovet xalqlarının ümumiləşdirilmiş nümayəndəsi kimi ***humanist təbiətə, beynəlmiləlçi əqidəyə, saf mənəvi bütövlüyə*** malikdir. O, ***haqqın, ədalətin, azadlığın, səadətin uğrunda, həqiqətin, məhəbbətin, əqlin, kamalın təntənəsi*** naminə mübarizə aparır. Bütün bunlar isə S.Vurğun poeziyasının fəlsəfi məzmununu təşkil edir və təravətli şəkildə bədii əksini tapır.

S.Vurğun poeziyasının fəlsəfi məzmunu hər şeydən əvvəl, lirik qəhrəmanın həyata, zamana və xüsusilə insanın özünə münasibətində təkmilləşir.

S.Vurğun şeiri, ümumiyyətlə, fikir və hiss poeziyasıdır. Bu şeirdə yüksək emosionallıqla dərin fəlsəfi məzmun sintez şəklində təzahür edir. Lakin, çox vaxt emosionallıqla fikrin sintezi ayrı-ayrı şeirlərdə dominant nisbətdə ortaya çıxdığından, fikri tutum üstün olan şeirlərin əksəriyyətini ya mücərrədlikdə qüsurlu hesab edir, ya da şeirləri fərqləndirmək üçün nəzəriyyədə “fəlsəfi şeir” terminini işlədirlər. Əlbəttə, heç bir şeirdə fəlsəfəyə aid modus həll olunmur və bu, şeirin vəzifəsi də deyildir. Şeirdə gerçəklik, həyat hadisələri haqqında, insan və zaman, insan və təbiət nisbətlərində hissi-emosional mühakimələr, bədii-məntiqi mülahizələr verilir. Yəni, şeirin fikir tutumu, zəka və əql yükü çox olur. Bu cür mühakimə və nəticələr isə şeirə “fəlsəfi məzmun tonu” verir. Belə bir “ton” əksər şeirlərə xasdır ki, daha bunu növə ayırıb “fəlsəfi lirika” ətəyi altına toplamaq, bir o qədər də, məqsə-dəuyğun deyildir. Burada yalnız fəlsəfi məzmundan, fikir tutu-

munun üstünlüyündən danışmaq olar. Elə buna görə də belə şeirlərdən söhbət açan tənqidçilər, tədqiqatçılar sanki məcbur olub, “şeirdən çıxan fəlsəfn nəticə”, “yürüdülən mühakimələr” kimi ifadələrdən kənarlaşa bilmirlər.

S.Vurğun yaradıcılığında “Həyat fəlsəfəsi”nə qədər “fəlsəfi şeir” nümunəsi olmadığını söyləyir və beləliklə də yanlışlığa yol verirlər. Bədii yaradıcılıqda, xüsusən poeziyada fəlsəfi düşüncəni, konsepsiyanı müəyyən bir dövrlə yox, onun bütün inkişaf yolu ilə bağlamaq daha doğru, daha obyektiv nəticəyə gəlmək imkanı verir.

S.Vurğunun “Həyat fəlsəfəsi” şeirindən iki il əvvəl yazdığı və mövzuca ondan kəskin fərqlənən “Ala gözlər” əsəri ənənəvi bir mövzuya – gözəlin, gözəlliyin, məhəbbətin tərənnümünə həsr edilmişdir:

Yenə qılıncını çəkdi üstümə,
Qurbanı olduğum o ala gözlər.
Yenə cəllad olub durdu qəsdimə,
Qələm qaş altından piyala gözlər.

Burada adi, həyati detala münasibət yüksək emosiya ilə yoğrulur, həmçinin bu, gözəllik haqqında mühakimədir – gözəllik insanı əsir edə bilər. Poetik detala bu cür hissi münasibətlərdən yaranan bədin-əqli mühakimələrlə həyat haqqında, ictimai inkişaf haqqında fikir yürüdülür, şeirin sonunda bədii-məntiqi hökm verilir, yaxud bir sözlə, “fəlsəfi” nəticə çıxarılır. Hiss ilə əqlin, emosiya ilə zəkanın sintezi gerçəkliyin məntiqi nəticəsini ortaya çıxarır və poetik sonluq şəklində nəqarətə çevrilir:

Cahanda hər hökmü bir zaman verir,
Dünən dövran sürən, bu gün can verir.

İllər xəstəsiyəm, yaram qan verir,
Siz məni saldınız bu hala, gözlər.

Bu misralar heç də göydəndüşmə, filosofçuluq xatirinə söylənilmir. Maraqlı burasıdır ki, bu bədii-fəlsəfi nəticə uzun bir ədəbi-fikri prosesin davamı kimi ortaya çıxır. "Ala gözlər" şeirində fəlsəfi məsələlər, problemlər yoxdur, ictimai, bəşəri hissin ağıllı poetik ifadəsi vardır. O, gözəlliyə baxış konsepsiyasının nəticəsi kimi şərtlənir...

Burada "canlar alan" bir gözəldən, ülviləşdirilmiş həyati bir varlıqdan bəhs edilir. Ala gözlərin sahibinə S.Vurğun sanki lap Vaqifanə baxır, onun metaforaları ilə gözəlin surətini cızır:

Gərdənin minadır, boyun tamaşa,
Ay da həsəd çəkir o qələm qaşa.
Bir cüt ulduz kimi verib baş-başa,
Yanıb şölə salır camala gözlər.

Əlbəttə, bu cür poetikləşmiş gözəlliyə çatmağa, qovuşmağa lirik qəhrəmanın özü də həsəd aparır. Lakin vaxtilə lirik xarakter bu gözəlliyə bir ara etinasız olmuş, "sevdanın qəmi"ni unutmağa çalışmış, lirik "mən"in "tarimar düşüncəsi", "zəhərli" əhvalı üsyana çevrilmişdir. Bu etiraz gözəlliyin, mə- həbbətin, mənəvi vacibliyin dərkindən yox, dərkedilməzliyindən yaranır. "Ölən şeirlərim" kimi əsərlər meydana gəlir. Həmin dövrdə qədəmləri yeni-yeni bərkiyən lirik xarakter "mavi gözləri" – insani, bəşəri gözəlliyi illuziya sayır.

İncə bir bahar buludunu andıran
və gəncliyi
bir göl kimi dalğalandıran
mavi gözlərə
Yazdığım dastanlar...
Vərəmli
və sitəmli gecələrimi

günəşli gündüzlərə döndərdim –
Bu gün məndən uzaqsınız.
Sizi mən
ölən
günlərin heçliyinə
öz əlimlə göndərdim.

1931-ci ildə “mavi gözlərə” belə bir münasibət, müəyyən yaradıcılıq yolundan keçərək konseptual şəkildə dəyişmişdir. Lakin bədii fikri proses yeni, ən yüksək bir həqiqəti aşkara çıxarır – məhəbbət, gözəllik insanı “tarimar düşüncəli, dar xəyallı” etmir. O, insan həyatını “vərəmli və sıtamlı” gecələrə döndərmir. Ülviləşən gözəllik, gerçəklikdən, varlıqdan doğan gözəllik, bu gözəlliyə bəslənən məhəbbət insanı daha da ucaldır, onu həm də zövq və kamala yetirir. Gözəlliyə əql və zəka ilə yoğrulmuş ürəklə baxanda o, daha da mənalanır. Nəhayət, belə yüksək bədii və konseptual qənaət hasil edən lirik qəhrəman bütün səmimiyyətilə deyir:

Mən qədir bilənəm əzəldən bəri,
Sizinlə yetmişəm kəmala, gözlər.

Göründüyü kimi, lirik qəhrəman keçmiş baxışlarına, görüşlərinə dialektik şəkildə yenidən nəzər salır, özünün indiki bədii qənaəti ilə dünənki geriçəkilməni əsaslandırır.

Cahanda hər hökmü bir zaman verir,
Dünən dövran sürən bu gün can verir.

Beləliklə, bu cür dərin və geniş mənaya malik fikrin doğuş nöqtəsi, heç də 1942-ci ilə yox, S.Vurğun yaradıcılığının lap ilk aylarına qədər gedib çıxır.

“Həyat fəlsəfəsi” şeirini S.Vurğun lirikasında “fəlsəfi şeir növü” hesab etmək olmaz. Poeziyada xüsusi bir “fəlsəfi yaradıcılıq növü”, məsələn “fəlsəfi lirika” qolu artırmaq çətindir və şərtidir... Bü dövrdən Vurğun poeziyasında kökləri, rişələri əvvəllərə bağlı yeni bir keyfiyyət özünü büruzə verməyə başlayır, onun həyata baxışı təkmilləşir, fikirlərin problematik mahiyyəti böyüyür...

Bu zaman S.Vurğun şeirin qarşısında əhatəli məna və vəzifə qoyurdu – poeziya tərəqqiyə, insanlığa, xoşbəxt gələcəyə böyək ideallar mövqeyindən xidmət etməlidir. Şair poeziyanı “kommunizm poeziyası”, “insanlıq və tərəqqi poeziyası”, “xalqlar qardaşlığı poeziyası” adlandıraraq onu zamanın aparıcı səhnəsinə çıxarır, sənətə ümumibəşəri arzular səviyyəsindən yanaşmağa çalışır. O, poeziya gəmisini belə bir işıq bucağına yönəldirdi ki, “bəşəriyyətin bədii fikri yalnız böyük ideyalar əsasında inkişaf edə bilər. Qabaqcıl fəlsəfi və siyasi ideallardan kənarda heç bir böyük ədəbiyyat yaşaya bilməz...”.

Bu dövrdən S.Vurğun romantikası yeni vüsət alır: əqlin, zəkanın və hissin, xəyalın yeni qatları, əngin səmaları şair tərəfindən araşdırılır. Romantik təxəyyülün genişliyi gerçəkliyə, həyata müdaxiləni gücləndirir və bu münasibət panoram xarakter daşıyır, möhtəşəmlik kəsb edir...

Bu vaxtdan etibarən S.Vurğun poeziya aləminin baş qəhrəmanı “insan şərəfini yüksəldən, onun həyat və taleyini gözəlləşdirən, bəşəriyyətə zülmətlər içində işıqlı gələcəyə yol göstərən” bir qəhrəmandır. Xalq və vətən mənafeyinə təpərlə yanaşmaq, məslək və əməl eşqilə odlardan, alovlardan keçmək, həyat naminə mərdanə ölümə getmək, həyatın əsil və müqəddəs mənasını zəhmətdə görmək, öz azadlığına və başqasının azadlığına hörmət etmək, kommunizm ideyaları uğrunda çarpışaraq bütün insanlığa xoşbəxt gələcək yaratmaq üçün böyük əməllər bu qəhrəmanın mahiyyətidir, varlığıdır. Lirik qəhrəmanda

insanlığa dərin etiqad, inam, gələcəyin təntənəsinə aparıb çıxaran hünər, həyat eşqi vardır. Onun idealı ***"Ədalət, Həqiqət, Səadət, Gözəllik və Məhhəbət"***in Vətəndə bərqərar olması və bütün dünyaya yayılmasıdır. Bunun üçün onun mübarizə bayrağı üzərində ***"Hünər" və "Zəfər"*** sözləri yazılmışdır.

"Sözün şöhrəti" şeirində bu məram daha yüksək poetik inamla ifadə edilir.

S.Vurğun təkcə bu mənalar üzərində düşünmür, bunların həyatda bərqərar olması üçün bütün ilham və istedadını səfərbər edir. "İstiqbal təranəsi", "Nəsibimiz səadətlə ilk bahardır", "Sözün şöhrəti", "Qoca qartal", "Məhəbbət ilhama çağırır məni", "Şair, nə tez qocaldın sən?", "Düşüncələr", "Bahar düşüncələri", "Mən tələsmirəm", "Yada sal məni", "Qürbət eldə" kimi incə, könül oxşayan, dərin mənalı şeirlərini, "Zəncinin arzuları", "Avropa xatirələri", "Muğan", "Leninin kitabı", "Zamanın bayraqdarı" kimi lirik-epik əsərlərini, "Aygün" epik poemasını, "İnsan" pyesini yazır, poetik amalını təqribən ***"Qalib gələcəkmi cahanda kamal?"*** problematikası ətrafında qurur. Mövzuca müxtəlif, mahiyyətcə çox yaxın olan bu əsərləri ürək genişliyi, kamal dərinliyi kimi bir xüsusiyyət birləşdirir. Lirik qəhrəman yalnız yüksək vüsətə, mənaya qovuşmağa cəhd edir:

Deyirəm ki, bayram günü çöldə, çəməndə
Ürəklərə nəğmə tutan bir ney olaydım.
Mən özümü bu dünyada, dünyanı məndə,
Dərk eyləyib, məna dolu hər şey olaydım...

Bu cür insana məhəbbət və inamla dolu poeziya müharibənin sonuna doğru zamanla insan kamalının qarşılaşdığı bir dövrdə daha da inkişaf etmiş, daha əhatəli olmuşdu. Müharibələrin törətdiyi faciələr şairi bəşərin gələcəyini düşünməyə məcbur edirdi. Axı, hər şeyi yaradan, quran, təbiəti belə dəyişdirən insan

qüdrətidir, insan kamalıdır. *İnsan kamalı ədalətə, həqiqətə, səadətə, gözəlliyə, məhəbbətə, azadlığa xidmət etsə, qüvvələrini bərabərlik və qardaşlığın təminatına sərf eləsə, pislik, rəzalət, ölüm yox olar, insan övladı səadət dolu bir istiqbala qovuşar.*

S.Vurğun şeirinin romantik lirik qəhrəmanı zaman və məkan hüdudlarını söküb dağıdır, uzaq gələcəyi poetik xəyalın və zəkanın gücü ilə oxucunun gözü önündə canlandırır:

İllər gəlib dolandıqca qərinələr keçəcəkdir,
Bütün aləm qurtuluşun şərbətindən içəcəkdir.
Min bir kitab bağlanacaq yenə ömrün camalına,
Ulduzlar da baş əyəcək insanlığın kamalına.
Yer üzündə nə xəyanət, nə də iblis qalacaqdır,
Bütün həyat istisini bir günəşdən alacaqdır.
Ağıl deyir qalmayacaq yer üzündə qandan əsər,
Hər könülə ilham kimi güləcəkdir gözəl səhər.
Bu nizələr, bu süngülər muzeylərdə pas tutacaq,
İnsan oğlu yaratdığı dəhşətləri unudacaq.
İnsan qonaq gedəcəkdir ulduzların məclisinə,
Dünya qulaq verəcəkdir kainatın ney səsinə.
Tarix gəlib qovuşacaq ən müqəddəs bir niyyətə,
Biz indidən söz qoşuruq o ilahi şeiriyyətə.

Budur, insan kamalının yaratdığı gələcək bəşəri xoşbəxtlik. Burada bir neçə zaman və məkandan söhbət açılır. Ümumiyyətlə, S.Vurğunun bu qəbildən şeirlərində zamanlar kinokadr kimi bir-birini əvəz edir, oxucunu əbədi ideala qovuşdurur. Belə şeirlər insanı həyata daha yaxından bağlayır, onun zəhmətini, ömrünün mahiyyətini mənalandırır, onlarda gözəl vərdişlər, duyğu və həyəcanlar, əməl və arzular yaradır.

Bu baxımdan "İstiqbal təranəsi" şeiri təhlil edilən əsərlərin hamısı üçün səciyyəvi xüsusiyyətə malikdir. Əsər həm

problematikasına, həm də formasına görə əhatəli və ehtivalıdır. Burada əsas mahiyyəti üç poetik detal özündə birləşdirərək şeirin kompozisiyasını istiqamətləndirir, ideyasını aşkara çıxardır: ***İnsan-hünər-həyat eşqi*** əl-ələ verib kamalın hakim olduğu ideal istiqbalı yaradır. Romantika ülviyyət qanadları üzərində uzaq gələcəyi bizə yaxınlaşdırır. Şeirdə iki zaman canlandırılır. Biri indiki zamandır ki, gələcəyin özünü öz xariqələri ilə bu gündən yaratmağa başlayır. Bu yolla ölüm-dirim döyüşünə girir. Bu zamanın qəhrəmanı İnsan, onun məğlubedilməz hünəri və həyat eşqidir. Hünər və həyat eşqi insanı "odlardan, alovlardan keçirir, onun taleyini gözəl istiqbala qovuşdurur.

Şeiri poetik fikrin inkişafına və zamanlar təsvirinin müxtəlifliyinə görə şərti şəkildə iki hissəyə bölmək olar. Ahəngdə əvvəl ağır, ləngərli bir təntənə vardır. Bu təntənə sambal, siqlət yaradır. Sözlər, ifadələr, metaforik birləşmələr dəfələrlə eşitdiyimiz sözlərdən cəmlənsə də mənalı və yeni səslənir, hər bir misra obraza, lövhəyə çevrilir. İlk misranın özü oxucunu real zəmindən alır, romantik, qeyri-adi bir aləmə salır. "Günəşlər, aylar, ulduzlar vüqar ilə dolaşdıqca" ifadəsi adi bir mətləbi, günün, zamanın keçməsini, ötməsini ifadə etsə də daxili, fikri bir məna yükünə, məna sehrinə də malikdir. Bu onun deyiliş tərzində, ahəngində, yaratdığı emosiyada özünü aşkara çıxarır. Bu məna ondan ibarətdir ki, keçən vaxt, ötən gün, zaman adi deyildir, o, nəsə gətirməli, nəsə yaratmalıdır. Beləliklə də, elə ilk misradan hissi gərginlik əmələ gəlir, neçə deyərlər, oxucunu öz sehrinə salır, onu "səadətlə fəlakətin" döyüş meydanına gətirib çıxarır. Burada hər şey səfərbərdir:

Müqəddəs intiqam eşqi qılınc çəkmiş üfüqlərdən,
Xəyalım tək uçur göydə şəfəqli nurlu bir yelkən...
O, şimşəkdən qanad taxmış, süzür göylərdə sürətlə,
O, insandır, o, insandır, ucalır ərşə qüdrətlə.

O, insandır ki, hər haqqı, nəsibi qəhrəmanlıqdır,
Hünərsiz millətin yurdu günəşsiz bir qaranlıqdır.
Zamanın şanlı övladı qılınc taxmış bu inamla,
Axar çaylar, yaşıl düzlər boyanmışdır qızıl qanla.
Dumanlar, tüstülər qopmuş qılınclar, toplar ağzından,
Həyat eşqilə odlardan, alovlardan keçir insan.

Bu müqəddəs döyüş səhnəsi insanın səadət uğrunda, gələcək uğrunda mübarizəsinin bu günüdür, indisidir. Bu panoram zaman lövhəsində romantikanın zəngin çalarları dövrün mahiyyətini, insanın vəzifəsini canlandırır, müəyyənləşdirir və ideal bir istiqbaldan xəbər verir ki, elə bu yerdə şairin səyyar xəyalı oxucusunu da müasir aləmdən uzaqlaşdırır... Şeirin ritmi, ahəngi, forması dəyişirsə də, əsas motiv yenə də qalır ki, bu da təntənəliyi, samballığı axıra qədər mühafizə edib saxlayır. Yeni məzmun, uğrunda can qoyduğu ideal S.Vurğun şeirində forma yeniliyi yaradır. Şairin yaradıcılığında indiyə qədər müşahidə edilməyən bölgü və qafiyə quruluşu əmələ gətirir. Yeni forma ideal gələcəyin obrazını, şən, firavan, azad dünyanı təsəvvürə gətirməyə kömək göstərir, səadətdən xəbər verən oynaq ritm yaradır:

Uçub səyyar xəyalımla uzaqlaşdım bu aləmdən,
Zamanlar atlayıb keçdim, bir istiqbala vardım mən.
Bir istiqbal ki, qoynunda gül açmışdır bütün aləm,
Onun ulduzlu hüsnündə
Müzəffər, şanlı köksündə
Nə bir qəm var, nə bir matəm!
Şəhidlər qəbri üstündə o istiqbal qurulmuşdur.
Bulanıq çaylar, ümmanlar, tamam yer, göy durulmuşdur.
Könüllər mülkü ney tutmuş, xuramandır bütün dünya...
Əməl, arzu, xəyal, sevda
Ötür bir sazda, bir simdə, bir ahəng, bir səadətlə,

Ötür hər qəlbə, vicdana, hər eşqə, hüsnə hörmətlə.
Gülür torpaq, gülür insan.
O çıxmış yas libasından,
Səma şəffaf
Çiçəklər saf,
Yerin qəlbində toy-bayram!
Gülür sənət,
Gülür ilham.
Günəş tək nurə qərq olmuş bütün xilqət!

Göründüyü kimi, səadət bütün dünyada cilvələnib yaşamaq, yaratmaq xoşbəxtliyə çevrilib, bəşəriyyət, butün insanlıq bəxtiyarlığa qərq olub. Bu ümumbəşəri idealdır, ümumdünya səadətidir, anamız Yer kürəsinin xurmanlıq içrə dövr etməsidir – bütün dünyada haqqın, ədalətin, insan əqlinin-zəkasının qalibiyyət təntənəsidir:

Kamalın hüsni-eşqilə bəşər cənnət yaratmışdır,
Qovuşmuş ayrı ümmanlar... Nə qürbət var, nə həsrət var,
Bir eşqin şanlı hüsnilə gəlir dünyaya insanlar...
Kamal hakim... Söz azaddır...
Xəyal səyyar... Ürək şaddır...

Bütün tərəqqipərvər bəşəriyyətin bu cür ideal uğrunda apardıqları mübarizə və arzuların romantik təsvir-tərənnümündən sonra lirik qəhrəman yenə bu günlərə qayıdır, həm təəssüf, həm də ümid hissi ilə deyir:

Xəyaldır bəlkə bunlar, ah... Qoy olsun, daş deyil insan,
Xəyal idrakla bir yerdə gəlib keçmiş zamanlardan...
Xəyalın hüsnü heç solmaz... Bu sənət daima vardır –
Zamanı fəth edən ərlər yenilməz qəhrəmanlardır...

S.Vurğun poeziyasının müdrikliyi, onun lirik qəhrəmanının bəşəri ideallara çatmaq niyyəti burada açılır. Bu qəhrəman zamanları fəht etmək, onu qabaqlamaq, sabahı indidən görmək istəyir. Yəqin, elə bu keyfiyyətə görə P.Antakolski şairin yaradıcılığı haqqında yazırdı: “Onun poeziyası oxucular qarşısında dünyanı dərk etmək və dəyişdirmək üçün geniş imkanlar açır”[1].

“Xəyaldır bəlkə bunlar ah!” təəssüf hissinə baxmayaraq, kamalın təntənəsi fikri, ***“Qalib gələcəkmi cahanda kamal?”*** problematikası S.Vurğun poeziyasında çox əvvəllərə gedib çıxır və həmin düşüncələrin yaranma mənbəyi kimi maraq doğurur. Bu, Bəxtiyarın, Cəlalın, Bəstinin, 26-ların, Vaqifin idealında daxili inkişaf prosesi keçirmiş, S.Vurğun poeziyasının lirik qəhrəmanının mənəviyyatında əvvəlcə cücərmiş, nəşvü-nüma tapmış və indi birbaşa, boya-boy ucalmışdır: ***“Qalib gələcəkmi cahanda kamal?”.*** Bu, tərəqqipərvər bəşəriyyətin qarşısında duran müasir, problematik ictimai-siyasi və fəlsəfi bir sorğudur. Bu, XX əsr – atom, elektronika, lazer əsrinin doğurduğu sualdır. Bu tələbatın, problematikanın bəşəri mahiyyəti, mənası indi daha aydınlığı və vacibliyi ilə özünü göstərir. İndi dünyanın tərəqqipərvər qüvvələri daha əzmlə, əql və zəka ilə məsələləri həll etməyə çalışır, məqsədlərini atomun gücündən daha çox kamalın gücündən istifadə etməyə yönəldirlər...

Müasir dövrümüz üçün kamal, əql, zəka gücü nə qədər qüdrət kəsb etməyə başlasa da müharibənin odları, alovları arasında “Qalib gələcəkmi cahanda kamal?” sualının S.Vurğun poeziyasında doğuş nöqtəsi məntiqi və mahiyyəti öz vaxtında idi. S.Vurğunun lirik qəhrəmanı bu problemi ortaya ataraq kənara çəkilmir, kamalın təntənəsi, qələbəsi üçün kamalın özünü mübarizəyə aparır. Bu çağırış onun mübarizə proqramıdır; onun

[1] P.Anatolski. Qəlbin səsi. “Ədəbiyyat və incəsənət”, 23 aprel 1966-cı il.

fəlsəfi – “Qalib gələcəkmi cahanda kamal?” – sorğusudur; “İstiqbal təranəsi”, “Gələcəyin toy-bayramı” silsilə şeirində təsvir olunan ideal gələcəkdir. O, dialektik qənaətə bel bağlayır: “Hər vuruş yolu açır bir qurtuluşa...”.

Qeyd etyimiz kimi, bu, müdrik, fəlsəfi, ictimai-siyasi mahiyyətli bir problemdir. Zamanın düşünən zəkasının irəli atdığı vacib bir problemdir. Elə buna görə də biz ilk dəfə onu zəka işığının qoruyucusu olan filosofun – Şahbazın (“İnsan”) dilindən eşidirik. Onun oğlu kiçik Şahbaz isə: “Qalib gələ- çəkdir cahanda kamal!” hökmünü verir. Lakin bu necə olur, hansı mərhələdən keçir? Kamalın döyüş və qələbə yolu göstərilmir. Biz mahiyyəti dərk edirik, bu mahiyyətə gətirib çıxaran mübarizə mərhələlərini isə Vurğun yaradıcılığının sonrakı səhifələri aşkara çıxardır. Bu mübarizənin mahiyyəti “Dünyanın xəritəsi”nin müxtəlifliyində, “Yandırılan kitablar”da, “Körpünün həsrəti”ndə, “Zəncinin arzuları”nda ortaya çıxır; “Leninin kitabı” bu mübarizəyə yol göstərir, “Zamanın bayraqdarı” mətin addımlarla öndə gedir, Sarvanın, Manyanın, usta Muradın zəhmətilə kamal dünyası qurulur, Aygünün məhəbbətində, Əmirxanın saldığı bağlarda gülzara çevrilir. Elə buna görə də gənc filosof Şahbaz əvvəlcədən: “Qalib gələcəkdir cahanda kamal!” hökmünü belə inam və cəsarətlə verir...

Beləliklə, hadisələrə, gerçəkliyə yüksək bəşəri ideal zəminindən baxmaq üsulu yeni bədii-poetik keyfiyyətlər yaradır, əvvəllər örtülü, potensial şərait keçirən bir sıra üslubi xüsusiyyətləri daha qabarıq şəkildə ortaya çıxarır. S.Vurğun şeirində adi bir vəziyyət, detal vacib, qaçınılmaz, qanunauyğun hal səviyyəsində ictimai-siyasi mahiyyət kimi mənalandırılır.

Bu keyfiyyət şairin romantik dünyagörüşünün, həyata baxışının xüsusiyyəti kimi də diqqətəlayiqdir:

Bir böyüklük görünsə də bütün aləm,
Neçə rəngdən yaranmışdır hər mənzərə.

Bir ümmanı görməyinlə fəxr etmə sən.
Kor da görsə o ümmanı deyil hünər.
Sənət deyir: ümman yarat zərrələrdən.

Monumentallıq, genişlik, kiçik həyat materialında, “zərrəsində” mahiyyət axtarmaq, hadisələrin köklü məsələlərinə müdaxilə şairin bu dövr poeziyasına xas olan xüsusiyyətlərdəndir. Onu daha çox gerçəklik haqqında mühakimə, bədii, məntiqi-fəlsəfi düşüncələr, romantik mənalar maraqlandırır. S.Vurğunda insana, onun həyatına, zəhmətinə, sevgisinə bədii baxış bir qədər fikri-xəyali mahiyyətli olduğundan sözün ziyası ilə işıqlanır, problem səviyəsinə qaldırılır.

“Şair, nə tez qocaldın sən?”, “Unudulmuş tək məzar”, “Məhəbbət ilhama çağırır məni”, “Lalə”, “Ceyran”, “Gödəkcə”, “Mən tələsmirəm...”, “Yada sal məni” və bu kimi şeirləri zahirən adi həyat hadisələrini, əslən isə qəlb arzularını, həyat eşqini, mənəvi dünyanın duyğularını əks etdirir. Bu şeirlərdə, bir çox hallarda nikbinliyin gur, parlaq səsi, akkordları arasında insanın özünə məhəbbətdən doğan “bədbinlik” notları da eşidilməkdədir. Əsasən, “Bir səs” şeiri ilə başlanan “Dərman verin”, “Qoca qartal”, “Unudulmuş tək məzar”, “Şair, nə tez qocaldın sən?” şeirlərilə qüvvətlənən “Mən tələsmirəm”, “Yada sal məni”, “Qürbət eldə” kimi yaşamaq eşqinə arxalanan, həzinliyi ilə seçilən bu həyat nəğmələri “özüm və zaman” fəlsəfi, həyati problematikası üzərində bədii düşüncələrdən başqa bir şey deyildir.

Şairin ev arxivində saxlanan “Bir səs” şeiri bu cür hissi-psixoloji halı əks edən ilk əsər kimi maraqlıdır. Şeir çox həyəcanlı, həzinlik dolu bir ruhla başlayır və nəhayət etiraz səsi ucalır:

Qərib bir səs gəldi bu gün qəlbimdən:
Ömrün baharında öləcəyəm mən...
Didib parçaladı bağrımı bu qəm,

Üzümə boylandı əlimdə qələm!?
Of!.. Bu səs! Nə qədər ömrümə yaddır.
Mənim ki, gəncliyim qəmdən azaddır.
Dağılın başımdan, qara xəyallar,
Hələ açılmamış əməllərim var.
Dövran mənzilimə xoş gələcəkdir.
Bu ana yurdumun şeir bayrağı
Mənim sənətimlə yüksələcəkdir.

Romantik üslubda yazılan, M.Qorkinin "Fırtına quşu"nu xatırladan "Qoca qartal" şeirində isə həyatla ölümün mübarizəsi gedir, ölüm qoca qartalı haqlasa da, o təslim olmur, qıy vurub asimana qalxır, buludlarla, şimşəklərlə pənçələşir, bir qul kimi yox – səmaları fəth etmək döyüşündə, həyat eşqi yolunda məhv olur.

Yaxud, "Mən tələsmirəm" şeiri heç də adi günün, ziyafətin, kef məclisinin seyrçi təsviri deyildir, burada insan həyatının, onun yaratmaq eşqinin dərin ictimai, mənəvi məzmunu əks olunub; heç bir güzəşt bilməyən zamanın özünü təmkinə çağırmaq, tələsiklikdən saqındırmaq əzmində olan insan xəyalı bədii şəkildə, fəlsəfi mənada qələmə alınıbdır. "Ömrün hər bir anını uzatmaq", ona əbədilik bəxş etmək!.. Şair həyata bu cür yanaşır, onu bu məntiqi əsasdan izah edir:

Hələ yer üstündə, insan yanında
Deyib danışmaqdan doymamışam mən.
Uzadaq ömrünü hər bir anın da,
Yel kimi keçməsin vaxt üstümüzdən...
Bu aylı gecədə, bu dağ doşündə
Bu saat, bu dəm
Heç yana, heç yerə mən tələsmirəm!

Həyat eşqi, yaratmaq həvəsi, ömrün mənası yüksək hissi-emosionallıqla, dərin məzmunla təsvir olunduğundan oxu-

cunu çəkib öz ardınca aparır. Həyatın dialektikası, həqiqətin sərt üzü həzin bir kədər də doğurur. Lakin bu kədər doğmadır. Bu kədər yaşayıb-yaratmaq eşqinin gücündən yaranır.

Bulud tez keçməsin başımın üstdən,
Çay da yavaş axsın... sular boyunca.
Baxım hər zərrəyə, baxım doyunca...
Ürək tərpənməyir ötərgi səsdən.

Nə çıxar bir anlıq yanan həvəsdən?
Qoy dünya böyüsün, zaman uzansın,
Bir günün ərzində aylarla yansın,
Al günəş, gözündən nur yağa-yağa...

Bu, fikri "insan və zaman" inteqralının həllinə yönəltməkdir. Bu cür mahiyyət və keyfiyyət təkcə onun ayrı-ayrı əsərlərində, lirik nümunələrində deyil, yaradıcılığının əsas mahiyyəti və keyfiyyəti kimi ortaya çıxır, poetik detalda insanın yaşamaq, yaratmaq eşqinə bağlı istəyi, arzusu, idealları ümumiləşdirilərək fəlsəfi-estetik mahiyyət kəsb edir. Yəqin, bu keyfiyyəti nəzərə alan Mir Cəlal yazır: "Səməd Vurğun nədən yazır yazsın, onun əsərlərində bir filosof xəyalı, alim təmkini, təfəkkür üstünlüyü vardır"[1].

Həyatı poetik idrak, fikri-bədii dərk S.Vurğun şeirində qanadlı mülahizələri, güclü ehtirasları, zamanın qabaqcıl meyllərinə, mütərəqqi ideallarına məhəbbəti daha da qüvvətləndirmiş, onun sənətkar şəxsiyyətini müdrik xalq şairi səviyyəsinə yüksəltmişdir. Buna görə də Nikolay Tixonov yazırdı: "S.Vurğun xalqın ən şirin arzularını, dərin hiss və duyğularını ifadə edən müdrik şair idealına sadiq idi"[2].

---

[1] Mir Cəlal. Xalq şairi S.Vurğun. Bakı: Azərnəşr, 1966, səh. 50.

[2] Tixonov N.S. Vurğun haqqında. "Azərbaycan gəncləri" qəz., 13 may,1966-cı il.

Təsadüfi deyildir ki, S.Vurğun Azərbaycan SSR EA-nın ilk üzvlərindən biridir. İlk dəfə Azərbaycan Xarici Ölkələrlə Mədəni Əlaqə Cəmiyyətinin sədri seçilmiş; ilk Azərbaycan şairidir ki, dövlət xadimləri səviyyəsində xarici səfərlər etmiş, SSRİ Sülhü müdafiə şurasının üzvü olmuşdur. İlk Azərbaycan şairidir ki, rəsmi şəkildə Azərbaycan Xalq şairi fəxri adına layiq görülmüşdür.

1947-ci ildə SSRİ Ali Sovetinin deputatları heyətində Avropaya səyahət edən, Londanda rəsmi dövlət görüşlərində olan şair Azərbaycan poeziyası tarixində ilk dəfə "dünyaya geniş pəncərə açmış", məşhur "Avropa xatirələri" şeirlər silsiləsini yaratmışdır.

1948-ci ildə Polşanın Vrotslav şəhərində sülhü müdafiə edən mədəniyyət xadimlərinin Ümumdünya konqresində iştirak edən şair sovet poeziyasına "Zəncinin arzuları" kimi sənət incisi bəxş etmişdir. K.Simonov "Zəncinin arzuları" haqqında demişdir ki, "Bu əsər bizim son illərdəki bütün poeziyamızın ən əhəmiyyətli nümunələrindən biridir".

"Zəncinin arzuları" və "Zamanın bayraqdarı" əsərləri "Qalib gələcəkmi cahanda kamal?" fəlsəfi, poetik problematikasının həlli silsiləsinin ən yaxşı və kamil nümunələrindəndir.

"Zəncinin arzuları" təkcə irqi ayrı-seçkiliyə, müstəmləkəçiliyə qarşı şairin etirazı, ya da əzilən bir xalqın üsyan dolu səsinin bədii əks-sədası deyildir. İrqçilik siyasətinin çirkinliyi, məhkum insanın – zənci rəssamın mənəvi faciəsi S.Vurğun üçün bədii vasitəyə çevrilmişdir. O, bəşəriyyətin azadlıq arzularını ümumiləşdirmişdir. Təbiət insanlığa bəxş etdiyi bütün nemətləri zəncidən də əsirgəmir, onu da ana laylası böyütmüş, vətən bərəkəti bəsləmiş, ona istedad bəxş etmişdir. Anasız yaşamağa qadir insan vətənsiz yaşaya bilmir, buna dözmür, "Vətənsiz də insan olan insan kimi yaşayarmı?" sualı qarşısında qəzəbdən hönkürür. Vətənin özündə vətənsizliyi azadlığın olmaması yaratmışdır. Buna görə də insan tələb edir:

Qoy qılınc qurşasın hər qəhrəmanlıq...
Bir yanğın olub da insan hünəri
Yarıb parçalasın bu zülmətləri.
Yıxılsın ağalar, qullar dünyası,
Dəyişsin insanın, ömrün mənası!..

İnsan şərəfi, insan ləyaqəti bu əsərdə zamanın aparıcı fikri kimi ortaya çıxır. Əsarət zəncirini parçalamaq istəyən zənci ideal gələcəyi arzulayır.

Hər insanın baxışında
Bir müqəddəs məna görüm!..
Nə qul görüm, nə də ağa,
Nə bir dustaq, nə bir zindan!
Cahangirlər dünyasından
Qalmasın bir yadigar da...
İnsan eşqi zəfər çalsın,
Səadətlə nəfəs alsın
Öz zəhməti, hünəri ilə...
Alqışlayın bu niyyəti!
Bu müqəddəs şeiriyyəti!
Qoy dünyanın min milləti
Bir and içib qardaş olsun,
Bir bayrağa sirdaş olsun!

Göründüyü kimi, zənci-rəssamın arzusu, idealı “İstiqbal təranəsi” şeirində təsvir olunan ideala, arzulara müvafiqdir. Bu, bəşəri arzulardır. “Müqəddəs şeiriyyəti” andıran istəkdir, kamal təntənəsinin həyata keçirdiyi gerçəklikdir. Bu, azadlığın, hürriyyətin, müstəqilliyin təntənəsidir. S.Vurğun 1948-ci ildə yazırdı: “Həyat və səadətin zəfərinə inanmayan, ümidsizlik, məyusluq, acizlik tərənnüm edən poeziya insan şərəfini, insan

ləyaqətini ucuzlaşdırır”[1]. Buna görə də, “Zəncinin arzuları” əsəri ən adi həyat faktı əsasında insan şərəfi və insan ləyaqəti haqqında poetikləşdirilərək ümumiləşdirilən nəğmədir...

Bu nəğmənin fəlsəfi və estetik davamını daha canlı şəkildə biz “Zamanın bayraqdarı” əsərində görürük. “Zamanın bayraqdarı” poeması şeirlə yazılmış, bədii formaya salınmış tarixdir – əsrləri arxada qoyub gələn insanlığın ideal arzularının tarixidir.

Min illərin zülmü və ağalar dünyasının hökmü ilə “bəşər dühasının pəncərəsi” qapandı, “ağılın səltənəti” qaranlıqlara gömüldü, “Həyat təpikləndi, insan alçaldı...”, lakin yenə də yaşadı, dirçəldi, proletar adını qazanıb haqqın, ədalətin yolunu kəşf elədi, “sabaha Leninin gözüylə baxaraq” “ağalar və qullar dünyasını” tarmar edib yerində sosializm qurdu.

Piter fəhləsinin mərd əllərilə
Yıxıldı ağalar, qullar dünyası:
Lenin dühasının əməllərilə
Dəyişdi dünyanın köhnə mənası:
Yıxıldı “ağalar, qullar” dünyası...

Tarixin yeni səhifələri açılır, “zaman yaşa dolur, insan ağıla” və beləliklə də bəşəri ideallar bir-bir həyata keçir, arzu dönüb gerçək olur:

Qələm də, süngü də, belə də, kətmən də
Min nemət yetirib, min söz yaratdı.
Qazax da, gürcü də, rus da, türkmən də
Bir göyün altında murada çatdı –
Min nemət yetirib, min söz yaratdı.

[1] S.Vurğun. Sənət aşiqi. “Kommunist” qəzeti, 6 iyun 1948-ci il.

Bir məslək eşqilə, bir məhəbbətlə
Yaşayıb-yaratdı mərd əllərimiz.
İnsana, vicdana, eşqə hörmətlə
Günəşə yol açdı əməllərimiz.

Poemanın sonuncu fəsli "İnsan ucalır" adlanır. Burada insanlığın ən xoşbəxt gələcəyi, kommunizmin yaratdığı təntənə – əqlin, zəkanın, insan kamalının qələbəsi tərənnüm olunmuşdur. İnsan idrakı yalnız xoşbəxtliyə xidmət edir, səadət qurur:

Hər idrak neçə cür nemət yetirir,
Miçurin şöhrətli ağaclar kimi.

İnsan ləyaqəti və insan şərəfi burada bütün çalarları ilə göz önündə canlanır, onun yüksəliş yolunun mahiyyəti poetik tərzdə açılır.

Məlum olduğu kimi, S.Vurğun hər bir mövzunu dielaktik əsasda götürüb şərh etmiş, hər bir poetik mülahizəni dəyişmə və inkişaf prosesində mənalandırmışdır. Lakin yaradıcılıq gedişində yeni bir sual ortaya çıxır:

Mən bu sətirləri yazdığım dəmdə
Ürək dilə gəlib dindi sinəmdə:
Şair! Dəyişməyən cahanda nədir?

Elə oradaca şair, insanlığın ən müqəddəs bir mənəvi keyfiyyətini həyatın, gerçəkliyin bütün qanunauyğunluğuna qarşı qoyur və inamla deyir ki, dəyişməyən, "odu sönməyən", "üzü dönməyən" – "bir məslək eşqidir, bir də əməldir"və bir də zamanın bayraqdarı, bəşəri arzuları həqiqətə çevirməyə qadir olan qüdrətli kommunistlər partiyamızdır. Beləliklə, siyasi lirikamızın seçmə nümunəsi, poeziyamızın nadir və qiymətli incisi yaranır.

Bəşərin vicdanı, eşqi, ürəyi,
Zehni, düşüncəsi, fikri, diləyi,

Bütün yer üzünün xoş gələcəyi,
Hər zövqü-səfası – partiyamızdır!

Hər təmiz ürəyin, saf məhəbbətin,
İnsana hörmətin, eşqə hörmətin,
Bu günün, sabahın, əbədiyyətin
Ən böyük mənası – partiyamızdır!

Bəli, bu əzəmətli himndən sonra S.Vurğun lirik qəhrəmanı ilə birlikdə oxucu bir daha təsdiq edir: "Qalib gələcəkdir cahanda kamal!".

1956-cı ilin baharında, Azərbaycan torpağının laləzar bir dövründə şairin 50 yaşı tamam oldu, lakin poeziyamızın "ağ saçlı pələngi"nin bahar ömrü ölüm-dirim döyüşünə girmişdi. May ayının 12-də şairin yubiley gecəsi bütün Sovetlər yurdunun mədəniyyət və poeziya bayramına çevrildi. Yubiley gecəsinə göndərdiyi məktubda "dostluq nəğməkarı", "həyat vurğunu", "odlu poeziya müəllifi" S.Vurğun yazırdı:

Gözüm gözünüzdən uzaq olsa da,
Könüldən könülə yollar görünür.

S.Vurğun poeziyasını, onun şəxsiyyətini müasirləri, qələm dostları, poeziya və şeir həvəskarları, idrak və məna biliciləri həmişə yüksək qiymətləndirmiş, bu nadir istedada malik şair haqqında söz deməyi özlərinə şərəf hesab etmişlər.

A.Y.Adalis şair haqqında yazır ki, "bu mənim tanıdığım şairlərdən ən istedadlısı və həmçinin mənim tərcümə etdiklərimin də ən istedadlısı idi". Avetik İsaakyan S.Vurğunu ən qüdrətli şair adlandırmış, A.Fadeyev onun sənətinə pərəstiş etmişdir.

Lui Araqon fəxr ilə yazmışdır: "...S.Vurğun dünya və sovet ədəbiyyatının fəxridir".

S.Vurğun şeiri insanlığa xidmət etmiş, bəşəriyyətin mədəni

tərəqqisinə kömək göstərmişdir. Bü xüsusiyyəti nəzərə alan görkəmli gürcü şairi G.Leonidze yazır: "Mənim sevimli dostum S.Vurğun təkcə öz oxucularına deyil, bizə – sovet şairlərinə də çox şey bəxş etmişdir". Məşhur sovet şairi Qaysın Quliyev iftixarla demişdir: "Səməd, biz Vətəni, xalqı hərarətlə sevməyi səndən öyrənəcəyik".

Belə bir yüksəklik, insanpərvərlik, xalqsevərlik poeziyası, qüdrətli şair şəxsiyyəti S.Vurğunu əbədiləşdirdi, onu xalqımızın ölməz sənətkarlarından birinə çevirdi. Sosialist Əməyi Qəhrəmanı, Xalq yazıçısı Süleyman Rəhimov bunu nəzərdə tutaraq yazırdı: "Sənin adın xalqın qəlbində, hər bir ailədə, hər bir evdə, hər sazın səsində, hər bir mahnıda min illər boyu yaşayacaqdır". Görkəmli xalq yazıçısı fikrində olduqca haqlıdır, indi təkcə Azərbaycan sovet ədəbiyyatında deyil, ümumittifaq ədəbiyyatında böyük və diqqətəlayiq S.Vurğun mövzulu, S.Vurğun qəhrəmanlı bədii ədəbiyyat yaranmışdır. Şairin şəxsiyyəti, həyatı, yaradıcılıq fəaliyyəti ədəbiyyat-sənət mövzularına çevrilir, nümunə ola biləcək sənət əsərləri yaranır. Bu hal hələ şairin sağlığında başlamış, müasir günlərimizdə isə daha da güclənmişdir.

Poeziyanın korifeyləri ilə yanaşı duran şair ona görə də, inamla deyirdi:

Mən söhbət açsam da yüz qərinədən,
Bu gündən ayrıla bilməyəcəyəm.
Böyük kommunizmin sabahına mən,
Sadə xatirə tək gəlməyəcəyəm.
Ellər uzadacaq şair ömrünü...

## BU KİTABA SON SÖZ ƏVƏZİ

**(Dünya sənət adamları Səməd Vurğun haqqında)**

***Məmməd Əmin Rəsulzadə ("Çağdaş Azərbaycan ədəbiyyatı" əsərindən):***

"Vaqif' XVIII yüzillikdə yaşamış məşhur Azərbaycan şairi Molla Pənah Vaqifin həyat və əsərlərindən ilham almaqla yazılmışdır… Azərbaycan vətənpərvərliyinə rəvac verən bu pyes çağdaş Azərbaycan səhnəsinin ən uğurlu əsəri sayılır. Səmədin dili, şairlik qüdrəti və vətənpərvərliyi necə anlaması haqqında bir fikir yaratmaq üçün onun bu mənzuməsindən bəzi yerləri birgə gözdən keçirək…"

***Üzeyir Hacıbəyov:***

"Mən poeziyanı musiqisiz təsəvvür edə bilmirəm. Bu mənada Səmədin şeirləri əvəzsizdir."

***Yemilian Bukov (Moldaviya):***

"Səməd Vurğun böyük hərflərlə yazılan əsl insan idi. O, həyatı, insanı çox yüksək qiymətləndirirdi və buna görə də hamının ürəyinə tez yol tapırdı. Bəzən sənə o qədər sadə görünürdü ki, belə bir nəhəng istedad sahibi olduğunu təsəvvür edə bilmirsən… Azərbaycan xalqına eşq olsun ki, adı böyük hərflərlə yazılan bir İnsanı – mənim Səməd Vurğunumu dünyaya gətirmişdir!"

***Çingiz Aytmatov (Qırğızıstan):***

“Dünyanın mədəniyyət irsinə Qərbdə Homerdən Puşkinədək, Şərqdə Füzulidən Səməd Vurğunadək neçə-neçə nəsillərin təxəyyül qüdrəti və təcrübəsi sərf olunmuşdur.”

***A.Sivalinqam (Hindistan):***

“Mən görkəmli Azərbaycan şairi Səməd Vurğunun poeziyası ilə tanışam. O, mənim çox sevdiyim şairlərdən biridir. Səməd Vurğunun əsərlərini oxuduqdan sonra Azərbaycan poeziyasına maraq göstərirəm və əlimə düşən almanaxlarda, qəzet və jurnallarda Azərbaycan şeirlərini axtarıram.”

***Xorxe Espinosa (İspaniya):***

“Gözəl Bakı, Odlar yurdu bir dürrdür,

Burda gördüm xoşbəxtliyi, sevinci.

Səməd Vurğun vulkan kimi püskürdü,

O dahiyə haray verdim birinci.”

***İlhami Emin (Yuqoslaviya):***

“Şeir yaşadıqca, söz yaşadıqca,

Vurğun kəsiləcək Vurğuna hər kəs.”

***A.Zayonçkovski (Polşa):***

"Bütün dünya xalqları kimi, Polşa xalqı da Azərbaycan şairi Səməd Vurğunun poeziyasını çox sevir. Elə təkcə "Azərbaycan" şeirinə görə ona xalq nəğməkarı demək mümkündür. Çünki S.Vurğun burada Vətənin ən əlamətdar keyfiyyətlərini ümumiləşdirir."

***Yan Sudrabkaln (Litva):***

"… Səməd Vurğunun şeirlərini oxuyarkən biz onun özünü görür, səsini eşidir, qəlbinin hərarətini duyuruq. Elə bil şəffaf güzgüdə bütün geniş, hüdudsuz səmanı əks etdirən mavi gölə baxırsan. Mənə elə gəlir ki, isti yay gecəsində eyvana çıxmışam. Hər tərəfdən növbənöv güllərin, növbənöv meyvələrin insanı məst edən ətri gəlir."

***Antanas Venslova (Litva):***

"Mən Səməd Vurğunla Moskvada, Yazıçılar İttifaqında, İttifaqın plenum və iclaslarında, Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə, SSRİ Ali Sovetinin sessiyalarında, ümumdünya sülh konqresində tez-tez görüşmüşəm. Onu həmişə sadə, xeyirxah və nəcib, səmimi dost və gözəl şair kimi görmək olardı. Poeziyanı o, sözün əsl mənasında, nə qədər sevmək mümkündürsə, bir o qədər böyük məhəbbətlə sevirdi. Poeziyasız onun həyatını təsəvvür etmək çətin idi. O, qardaş xalqları yaxından tanıdığı və alqışladığı böyük istedad idi..."

***Maksim Rılski (Ukrayna):***

“Səməd Vurğun ədəbiyyatda həmişə yüksək, romantik, poetik üslubu bəzi ədəbiyyatçıların qanadsız təsvirçiliyinə qarşı qoymuş və bu üslubu ehtirasla müdafiə etmişdir... O, yalnız böyük poetik istedada deyil, həm də parlaq, dərin zəkaya və böyük ürəyə malik insan idi. Əminəm ki, Səməd Vurğunun ədəbi irsi daimi yaşayacaq...”

***Uolter Mey (İngiltərə):***

“Füsunkar Azərbaycanı, ağsaçlı Qafqazı vəsf edən Səməd Vurğun təkcə bizim yox, bütün dairələrin və gələcək nəsillərin müasiri olaraq qalır və qalacaq. Mən onun poeziyasını hədsiz dərəcədə sevirəm. Dünyaya belə bir ilhamlı nəğməkar bəxş etmiş torpağa – Azərbaycan torpağına və xalqına minnətdarlığımı bildirirəm.”

***Aleksandr Fadeyev (Rusiya):***

“Onun ülvi poeziyası xalqımızın poeziyasının ən yaxşı əsərləri kəşkəşanında parlaq ulduz kim şəfəq saçır. Müxtəlif millətlərə mənsub olan milyonlarla bu poeziyanı sevir. Mən çox-dan bu poeziyanın məftunuyam… Dostlar – həyatımızda ən böyük səadətdir və nə yaxşı ki, dünyada Səməd Vurğun var!”

***Miroslav İvanoviç (Çexoslovakiya):***

"Vurğun bizə ona görə əzizdir ki, onun poeziyasında xalqın ruhu, doğma torpağın ruhu yaşayır. Məhz buna görə də o, həqiqi xalq şairidir və daim xalq şairi olaraq qalacaqdır."

***Nazim Hikmət (Türkiyə):***

"Səməd Vurğun poeziyamızın planetidir. Bu planetin günəşi, ulduzları sönməzdir. Səməd Vurğun – qardaş dillərimizin böyük xalq şairi, dillərimiz yaşadıqca əbədi yaşayacaqdır."

***Konstantin Simonov (Rusiya):***

"Səməd gözəl şair, mərd insan və sədaqətli dost idi. O, həqiqi xalqlar dostluğunun, şairlər arasındakı dostluğun nə demək olduğunu çox gözəl bilirdi. Məhz buna görə də ölkəmizin hər yerində və onun hüdudları xaricində Səmədin çoxlu dostları vardı…"

***Andris Veyan (Latviya):***

"Mən Səməd Vurğunun sözlərini indi də yada salıram, xüsusən qələmim çətin işləyəndə. Budur, 1956-cı ildir… Xəzər sahilindəyəm. Bakıda küləklər oynaşır. Bahar fəslidir. Amma qəlbimiz kədərlidir. Axı, biz Səməd Vurğunun "son" yubiley məclisinin qonaqlarıyıq. Danışmaqdan çox susuruq, həyat haqqında, əbədiyyat haqqında düşüncələrə dalırıq…"

***Anuar Əlimcanov (Qazaxıstan):***

Səməd Vurğunu təkcə Azərbaycanda, yaxud Sovet İttifaqında deyil, xarici ölkələrdə də tanıyırlar. Mən ərəb ölkələrinə, İrana və Asiyanın digər ölkələrinə çox səfərlər etməli olmuşam, sovet ədəbiyyatından söz düşəndə hər yerdə Səməd Vurğunun da şeirini eşitmişəm."

***David Kuqultinov (Kalmıkistan):***

"Səməd Vurğun Sovet İttifaqının elə emosional şairlərindəndir ki, təkcə Azərbaycan ədəbiyyatı deyil, həm də bütün SSRİ xalqları ədəbiyyatını öz zəmanəsi səviyyəsinə qaldırmağın vacibliyini dərk etmişdi… Buna görə də mən onun əziz surətini, onun qanadlı poeziyasını, onun qiymətli yaradıcılığını ömürlük ürəyimdə yaşadıram."

***Qafur Qulam (Özbəkistan):***

"Azərbaycan – qədim odlar ölkəsi xoşbəxtdir ki, dahi Səməd Vurğunu yetirib. Səməd başdan-başa istedad idi, yalnız şeir üçün doğulmuşdu… Qardaş Azərbaycan xalqının misilsiz mənəvi keyfiyyətlərini dostum Səmədin poeziyası vasitəsi ilə öyrənmişəm."

***Damdinsurengiyn Urianxay (Monqolustan):***

“Səməd Vurğunla mən minlərlə yaşıdlarım kimi, hələ uşaqlıq çağlarından tanışam. Monqol dilinə tərcümə edilmiş “Zəncinin arzuları” poemasını monqol uşaqlarının necə maraqla oxuduğunu indi də xatırlayıram. Bu alovlu əsər bizim dərsliklərə salınmışdır.”

***Maksim Tank (Belorusiya):***

“O, xalqına təkcə şeiri ilə deyil, qəlbinin bütün hərarəti ilə şairliyin bütün nəğməkarlıq qüvvəsi ilə xidmət etmişdir. Onun ecazkar orijinal lirikası, dramları misilsiz qiymətə malikdir. Bu əsərlər Azərbaycan poeziyasının üslubunun və dilinin formalaşmasında böyük rol oynamış, bütün çoxmillətli ədəbiyyatımızın inkişafına müsbət təsir göstərmişdir.”

***Mustay Kərim (Başqırdıstan):***

“Bütün ədəbiyyatların ulu ustadları var ki, yaradıcılıqları boyu çiyinlərində ağır, şərəfli bir yük aparıblar və bu, dünyanın böyük ədəbiyyatları sırasında öz xalqının, öz torpağının adı olub, ucalıb. Səməd Vurğun da belə ulu ustadlardandır.”

***Vilfrid Brants (Almaniya):***

“Mən Səməd Vurğunun ədəbi şöhrəti, onun ədəbiyyatda mövqeyi haqqında onu deyə bilərəm ki, bu “Vətən sevgisi ilə yanan sənətkar” müasir Azərbaycan ədəbiyyatının milli ənənələri ilə müasirliyi özündə birləşdirən ən görkəmli nümayəndəsidir.”

***Berdi Kerbabayev (Türkmənistan):***

"Səmədi bir dəfə görən onun hər bir hərəkətini, baxışını ömrü böyu unutmaz. Səməddə bir igid, bir qartal görkəmi vardır. O, mübahisədən çəkinməz, ta həqiqət aydın olana qədər mübahisə edərdi. O, dumanlı xasiyyəti, dumanlı sözləri sevməzdi."

***Rəsul Həmzətov (Dağıstan):***

"Səməd Vurğun Azərbaycan poeziyasının ağsaçlı qartalı, Azərbaycan sovet ədəbiyyatının atası və oğludur. Azərbaycan və Səməd Vurğun bir-birindən ayrılmazdır. Azərbaycan və Səməd Vurğun eyni məfhumdur, çünki Səməd xalqının ən yaxşı xüsusiyyətlərini – onun sadəliyini, cəsarətini dərin zəkasını və istedadını təcəssüm etdirir."

***Georgi Leonidze (Gürcüstan):***

"Səməd Vurğun Azərbaycan sovet poeziyasının balı və südü, duzu və çörəyidir, öz xalqının canlı təcəssümüdür. Onun parlaq, qüdrətli istedadı önündə baş əyirəm. Səməd Vurğunun adı bizim hamımıza yaxın və əzizdir. Onun poeziyasının sönməz şəfəqi Azərbaycan və gürcü xalqlarının nəhayətsiz dostluğu yolunda əbədi şölə saçacaqdır."

***Petrus Brovka (Belarusiya):***

“ O, təkcə qardaş Azərbaycanın yox, bütün sovet xalqlarının şairi idi. Onun müdrik ağlı, həssas, xeyirxah ürəyi vardı və buna görə də dostları Səməd Vurğuna dərin məhəbbət bəsləyirdilər.”

***Qaysın Quliyev (Balkar):***

“Qardaşımız Səməd Vurğun… Mənim qardaşım Səməd… O mənim çox yadımdadır və onu iftixarla xatırlayıram… Mən onu Azərbaycanın yox, dünyanın ən böyük şairi, gözəl insanı hesab edirəm. Onun gözəl poeziyası heç vaxt solmayacaq. Biz ana Vətəni, xalqı hərarətlə sevməyi Səməd Vurğundan öyrənmişik. İnsanda nə qədər yaxşı xüsusiyyətlər varsa, hamısını bu pirə, peyğəmbərə aid etmək olar.”

***Mixail Şoloxov (Rusiya):***

“Elə təkcə onun xarici görünüşünün özu bədii əsər üçün müdrik bir obraz idi. O, gözəl və əvəzsiz insan idi. Onun ölümü biz yazıçıların qəlbinə, ürəyinə dağ çəkdi…”

***Georgi Strumski (Bolqarıstan):***

“Vurğun” ləqəbi seçib əsərlərini belə imzalamaq necə də gözəl, həm də cəsur bir addımdır. Özü də Şərq poeziyası üçün ənənəvi gözəlliyin vurğunu yox, yaradıcısı olduğun yeni həyatın vurğunu…”

***Boris Oleynik (Ukrayna):***

“Mən Səməd Vurğundan danışanda onu cismən saf bilirəm, axı həqiqi şairlər heç vaxt ölmür, onlar yalnız həyatdan yaddaşlara köçürlər

***Əbülqasım Lahuti (Tacikstan):***

“Səmədin üzünü gördüyüm zaman, Cismimə can gəldi, gözümə işıq. Şairlər vətəni Azərbaycan da, Onun sənətilə tapmış yaraşıq.”

***Lui Araqon (Fransa):***

“Mən Səməd Vurğunun Sovet Yazıçılarının II Ümumittifaq qurultayında nitqini dinlədikdə dünyada baş verən böyük dəyişikliklər barədə fikirləşirdim… …O, necə də böyük bir ilham və ehtirasla böyük sovet şairlərini epik poemalar və mənzun romanlar yaratmağa ruhlandırırdı. Səməd Vurğun müasir dünya ədəbiyyatının iftixarıdır.”

(s o n)

**MÜNDƏRİCAT**

1. Latın qrafikası ilə nəşrə müəllif şərhi..........................3
2. Tehran Əlişanoğlu. Ədəbiyyatda yaşanan ömür.........5
3. Giriş əvəzi...........................................................17
4. Lirik qəhrəmanın təşəkkül yolu...............................19
5. Şairin poeziyasında lirik qəhrəmanın yetkinliyi.......41
6. Lirik qəhrəman və bəşəri ideal..................................62
7. Bu kitaba son söz əvəzi ...........................................84
8. Mündəricat............................................................94




**Kitabın 1976-cı il nəşrinin cildi.**

**Байрамов Курбан Фарман оглы**

**ПОЭЗИЯ ВУРГУНА**

**(к 70-летию со дня рождения)**

на азербайджанском языке

**Redaktoru:** Arif CƏFƏR

**Rəssamı və texniki redaktoru:** F.SƏFƏROV

**Korrektoru:** M.MUXTAROV

Çapa imzalanmış 27/ IV 1976-cı il. Hes.nəşr vərəqi: 3,85.

Çap vər.5,00 FQ 10653. Sifariş 759. Tirajı 1000. Qiymәti 12 qәp.

Azərbaycan SSR Nazirlər Soveti İşlər İdarəsinin mətbəəsi.

Bakı ş., Neftçilər prospekti, 133.



## Müəllif haqqında məlumat:

**Tənqidçi-ədəbiyyatşünas, doktor-professor Qurban Bayramov 1946-cı il mayın 30-da Azərbaycanın Ağdam rayonunun Əlimədədli kəndində anadan olmuşdur. Orta təhsilini burada almış, indki N.Tusi adına ADPU-nin filologiya fakültəsini (1963-1967) bitirmişdir. Orta məktəbdə müəllim, tədris işləri üzrə direkor müavini vəzifələrində çalışmışdır (1967-1971). Hərbi xidmətdə olmuş (1967-1968), AMEA-nda aspirantura təhsili almışdır (1970-1974). 1972-ci ildən AMEA-nın Ədəbiyyat İnstitutunda baş laborant, elmi işçi, baş elmi işçi olmuşdur. Hazırda həmin institutda aparıcı elmi işçi vəzifəsində işləyir.**

**1970- ci ildən ədəbi fəaliyyətə başlayıb, ilk elmi monoqrafiyası 1979-cu ildə "Səməd Vurğun poeziyasında lirik qəhrəman problemi" mövzusunda dissertasiyası olub… Bu günə kimi dövri və elmi mətbuatda 16 kitabı, 300-dən çox məqaləsi dərc edilib… Bunlardan "Vurğun poeziyası"(1976), "Lirik qəhrəman və zaman (Səməd Vurğun poeziyasında lirik qəhrəman problemi)" , "Tarixilik və müasirlik – "Sosialist realizmi müasir mərhələdə" kitabı (kollektiv) , "Yaşar Qarayev: Milli yaddaş təlımi – azərbaycançılıq", (Jalə Qurbanqızı ilə birgə) , "Poeziyanın sirri…" (mini-modern monoqrafiya), "Əli İldırımoğlunun yaradıcılıq yolu: Azərbaycan ədəbiyyatında avtobioqrafik roman janrının təkamülü" (monumental monoqrafiya) , "Xalq yazıçısı İlyas Əfəndiyevin yaradıcılığı ədəbi tənqiddə" (Jalə Qurbanqızı ilə birlikdə) və s. bu qəbildən kitabların müəllifidir.**

**Onun "Müasir Azərbaycan poeziyasında üslubi meyillər", "Azərbaycan ədəbiyyatında tarixilik və müasirlik", "M.Ə.Sabir ənənələri və Azərbaycan ədəbiyyatı", "Səməd Vurğun dünən, bu gün və sabah", "M.H.Şəhriyar poetik üslubu", "Qarabağ ədəbi mühiti – uzaq keçmişdən bu günümüzə qədər" təkin maraqlı tədqiqatları var. Bir sıra əsərləri, İranda, Türkiyədə, İraqda, Rusiyada, Macarıstanda, Litvada, Krımda, Kərkükdə, Qazaxstanda dərc olunub… Azərbaycan ədəbiyyatının əksər nümayəndələri barəsində məqalə yazıb, elmi və bədii kitabların redaktoru olub, onların bir çoxuna ön söz yazıb, dissertantlara elmi rəhbər və opponent olub, xüsusən, "Azərbaycan poeziyası"na həsr etdiyi ədəbi icmalları maraq doğurub… Uzun illər "Gənclik" nəşriyyatında rəsmi rəyçi, Azərbaycan Dövlət Televiziyasında "Ədəbiyyatşünaslıq və zaman", "Ədəbiyyat" (1982-1992) elmi-kütləvi, tədris televiziya verilişlərinin müəllif-aparıcısı, Ədəbiyyat İnstitutu Elmi Şurasının, Azərbaycan Yazıçılar Birliyi İdarə Heyətinin üzvü, Azərbaycan Respublikası Prezidentinin bir illik fərdi təqaüdçüsü (2011) olub. Azərbaycan MEA-nın Rəyasət Heyətinin, Azərbaycan Yazıçılar Birliyi İdarə Heyətinin , Azərbaycan Respublikası Həmkarlar Konfederasiyasının, AMEA-nın Azad Həmkarlar İttifaqının Fəxri fərmanlarına , "Tanınmış Vurğunşünas alim" , "Fədakar alim", "Elm fədaisi", "Vintsas" mükafatı" fəxri diplomlarına, "Səməd Vurğun mükafatı" na, "Avropa Nəşr Mətbu Evi"nin "Qızıl medal"ına layiq görülüb, Respublika Əmək Veteranıdır.**

**Qurban BAYRAMOV**

*(Bayramov Qurban Fərman oğlu)*

Redaktor: Zaur USTAC
Naşir: Tuncay ŞƏHRİLİ.
Kitabın adı: “Vurğun poeziyası”.
Kitab “Yazarlar”ın kompüter mərkəzində yığılıb.
Təşkilati dəstək: www.ustac.az *(Qeyri- kommersiya)*
Üzqabığının müəllifi: Tuncay ŞƏHRİLİ.
Çapa imzalandı: 21.05.2021.
*Kitab xeyriyyə məqsədi ilə nəşr olunur. Odur ki, heç bir kommersiya marağı yoxdur və gəlir əldə olunması nəzərdə tutulmamışdır. E-kitab hazırlanıb elektron kitabxanalara yerləşdiriləcək.*
Müəllif hüquqları qanunlarla qorunur.

Qiyməti: Pulsuz.
Sayı: 100 ədəd. (Elektron variantı var)
Əlaqə: zauryazar@mail.ru (+994)70-390-39-93 .
Kitab “El kitab çapı” mərkəzində çap olunub.

# QEYDLƏR




Üzqabığının müəllifi: Tuncay ŞƏHRİLİ (MUSTAFAYEV).